26 İyun Silahlı Qüvvələr günüdür!

iqtisadi qüdrətimiz naminə!

www.iqtisadiyyat.com

iQTİSADİYYAT

№25 (819)
26 İyun - 3 İyul
2014-cü il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

Demokratik proseslərin və azadlıqların təmin edilməsi bundan sonra da ölkəmiz üçün prioritet olacaq

Fransa Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının sədri xanım Ann Brasör ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunmuşdur. İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Strasburqda Avropa Şurasının baş katibi Torbörn Yaqland ilə görüşmüşdür.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Həmin gün Strasburqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Din Şpilman ilə görüşü olmuşdur.

Görüşdə Azərbaycanın hüquq mühafizə orqanları ilə İnsan Hüquq-ları üzrə Avropa Məhkəməsi arasında əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

İyunun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının (AŞPA) sessiyasında çıxış etmişdir.

Prezident İlham Əliyev çıxışında dəvətə görə təşəkkürünü bildirərək yenidən Strasburqda olmaqdan məmnunluğunu qeyd etmişdir. Dövlətimizin başçısı müstəqillik illərində iqtisadi sahədə əldə olunan uğurlardan danışmışdır. Avropa Şurasına üzvlüyü dövründə ölkəmizin bir çox nailiyyətlər qazandığını deyən Azərbaycan Prezidenti müstəqilliyin ilk dövrlərində yaşanan çətinliklərdən bəhs etmişdir.

Demokratik institutların fəaliyyətinin təmin edilməsi, din azadlığı sahəsində də görülən işlərin yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev yüz illər boyu ölkəmizdə tolerantlıq mühitinin qorunub saxlandığını diqqətə çatdırmışdır. Bildirmişdir ki, bu gün Bakı dünyada multikulturalizmin əsas mərkəzlərindən biri kimi tanınır və ölkəmiz 2008-ci ildə başlayan Bakı prosesinin təşəbbüskarıdır.

Prezident İlham Əliyev ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı ciddi mübarizənin aparıldığına diqqəti cəlb edərək bu sahədə dövlət səviyyəsində islahatların həyata keçirildiyini bildirmişdir.

Azərbaycanda güclü, vətənpərvər, təhsilli gəncliyin olduğunu, yüzlərlə yeni məktəb binasının tikildiyini, dünyanın məşhur universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulduğunu deyən dövlətimizin başçısı böyük tarixi, zəngin mədəniyyəti olan ölkəmizin bu gün regionda sabitləşdirici rol oynadığını diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, Azərbaycanın təşəbbüsü ilə bir çox regional layihələr həyata keçirilir. Bu da bölgə ölkələrinin inkişafına müsbət təsirini göstərir.

2011-ci ildə 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasına üzv olan Azərbaycanın bu qurumda fəaliyyəti dövründə ədaləti dəstəklədiyini deyən Prezident İlham Əliyev ölkəmizin dünyanın bir çox dövlətləri ilə konstruktiv əlaqələr qurduğunu söyləmişdir.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunmuş, Avropa Şurasının ölkəmizin ərazi bütövlüyünün tanınması ilə bağlı mövqeyinə görə təşəkkürünü bildirmişdir. Prezident İlham Əliyev bu münaqişənin bütün regionu təhdid altında saxladığını vurğulamışdır.

Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının status-kvonun saxlanmasının mümkünsüzlüyü ilə bağlı bəyanatlarını xatırladan Azərbaycan Prezidenti digər beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrin də icrasının vacibliyini diqqətə çatdırmışdır. Ermənilərin işğal etdikləri ərazilərdə tarixi-mədəni abidələri, sosial obyektləri, hətta qəbirləri dağıdaraq vandalizm hallarına yol verdiklərini ATƏT-in bölgədə olan faktaraşdırıcı missiyasının da təsdiqlədiyini deyən Prezident İlham Əliyev tarixi Azərbaycan torpağı olan İrəvanın XX əsrin əvvəllərində Ermənistana paytaxt kimi verildiyini bildirmişdir.

Dövlətimizin başçısı son illər Azərbaycanda həyata keçirilən iqtisadi islahatlardan, enerji siyasətindən də danışmış, beynəlxalq reytinq agentliklərinin ölkəmizin iqtisadi reytinqini artırdığını diqqətə çatdırmışdır. "Bu gün beynəlxalq birliyin fəal üzvü olan Azərbaycan sürətlə müasirləşir", - deyən Prezident İlham Əliyev demokratik proseslərin və azadlıqların təmin edilməsinin bundan sonra da ölkəmiz üçün prioritet olacağını vurğulamışdır.

Sonra Prezident İlham Əliyev deputatları maraqlandıran sualları cavablandırmışdır.

Bioloji Təbabət Klinikası
Almaniya - Azərbaycan

Üstünlükləri:

- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

MÜAYİNƏLƏR:

- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikasi və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

MÜALİCƏLƏR:

- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir apparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
Ünvan: 3-cü mkr. Cavadxan küç., 24
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) **430 89 89**
(050) / (055)
e-mail:bioklinik@biolojitababat.az

PAŞA Bank

Bizim ordumuz güclüdür.
Ordumuzun gücü
gündən-günə artır.
Ordu güclüdürsə,
ölkə də güclüdür.
Bayramınız mübarək olsun!

Mehriban dostluq və qonşuluq prinsiplərinə söykənən uğurlu əməkdaşlıq nümunəsi

İyunun 23-də Qəbələ Konqres Mərkəzində "Regionlararası əməkdaşlıq: yeni inkişaf imkanları" mövzusunda V Azərbaycan-Rusiya Regionlararası Forumu işə başlamışdır.

Azərbaycanın iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirmişdir ki, bu forum ölkələrimiz arasında mehriban qonşuluq və dostluq prinsiplərinə söykənən uğurlu əməkdaşlığın nümunəsidir. Nazir demişdir: "Ölkələrimiz beynəlxalq qurumlarda bir-birini dəstəkləyirlər. Dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli əlaqələrin inkişafına güclü təkan verir".

Ölkələrimiz arasında əmtəə dövriyyəsinin 2 milyard 600 milyon dollar təşkil etdiyini bildirən nazir vurğulamışdır: "Qarşılıqlı maliyyələşdirmə ikitərəfli əməkdaşlığın mühüm istiqamətləridir. Azərbaycan son 10 ildə Rusiyaya 1 milyard dollar sərmayə yatırmışdır. Rusiya iş adamlarının iştirakı ilə Azərbaycanda çoxsaylı biznes-forumlar keçirilmişdir".

Azərbaycan ilə Rusiya arasında humanitar əməkdaşlığın fəal inkişaf etdiyini bildirən nazir bu sahədə əlaqələrin genişlənməsində Heydər Əliyev Fondunun və Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin rolunu xüsusi vurğulamışdır.

Azərbaycanın Rusiya regionları ilə uğurla əməkdaşlıq etdiyini bildirən Şahin Mustafayev demişdir: "Azərbaycan Rusiyanın 15 subyekti ilə əməkdaşlıq haqqında sənədlər imzalamışdır. Bununla belə, Azərbaycan və Rusiya böyük potensiallarının köməyi ilə əmtəə dövriyyəsinin həcmini genişləndirə bilərlər".

Azərbaycan iqtisadiyyatının inkişafından söz açan nazir demişdir ki, ölkəmizə 170 milyard dollardan yuxarı sərmayə yatırılmışdır. O bildirmişdir ki, Azərbaycanda davamlı iqtisadi inkişaf vardır və əhalinin rifahı yüksəlir. Bununla belə, Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal olunması müxtəlif iqtisadi layihələri tam həyata keçirməyə imkan vermir.

Rusiyanın regional inkişaf naziri İqor Slyunyayev bildirmişdir ki, növbəti forumun Azərbaycanda keçirilməsi ölkələrimizin rəhbərlərinin əsasını 5 il əvvəl qoyduqları xoş ənənənin güc topladığının və genişləndiyinin göstəricisidir.

Plenar iclasda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Prezident İlham Əliyevin forum iştirakçılarına təbrik məktubunu oxumuşdur.

Sonra RF Prezidentinin xarici ölkələrlə regionlararası və mədəni əlaqələr idarəsinin rəisi Vladimir Çernov Rusiya Prezidenti Vladimir Putinin forum iştirakçılarına müraciətini oxumuşdur.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin, Şəki Rayon İcra Hakimiyyətinin başçısı E.Usubov, Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı A.Fərzəliyev, Dağıstan Respublikasının başçısı R.Abdulatipov, Rusiyanın Stavropol diyarının başçısı vəzifələrini müvəqqəti icra edən V.Vladimirov, İnquşetiya Respublikasının başçısı Y.Yevkurov da forumda iştirak etmişlər.

Sonra keçirilən "dəyirmi masa"larda energetika, nəqliyyat sahələrində əməkdaşlığın perspektivləri müzakirə edilmiş, turizm, investisiyalar, aqrar və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi imkanları nəzərdən keçirilmişdir.

Forumda təqribən 500 nümayəndə - hər iki ölkənin prezident administrasiyalarının, nazirliklərinin rəsmiləri, parlamentlərin deputatları, yerli icra hakimiyyəti orqanlarının başçıları, Rusiya Federasiyasının bir sıra subyektlərinin rəhbərləri, habelə sahibkarlar, qeyri-hökumət təşkilatlarının əməkdaşları və jurnalistlər iştirak etmişdir.

* * *

Qəbələdə keçirilən V Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçıları iyunun 24-də Qəbələ konserv zavodunda istehsal prosesi ilə tanış olmuşlar.

* * *

İyunun 23-24-də Qəbələdə "Regionlararası əməkdaşlıq: yeni inkişaf imkanları" mövzusunda keçirilən V Azərbaycan-Rusiya Regionlararası Forumu işini başa çatdırmışdır.

Yekun plenar iclasda forumda keçirilən "dəyirmi masa" moderatorlarının hesabatları dinlənilmişdir. Forumda ümumilikdə kənd təsərrüfatı, turizm, bank işi, sahibkarlıq sahəsində əlaqələrə və əməkdaşlığın perspektivlərinə, humanitar əlaqələrə, nəqliyyat, energetikaya dair "dəyirmi masa"lar keçirilmişdir.

Azərbaycanın iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirmişdir ki, forum geniş mövzuları əhatə etmiş, səmərəli müzakirələr aparılmışdır.

Çıxış edənlər bildirmişlər ki, forum çərçivəsində iclaslarda turizm sahəsində yeni əməkdaşlıq imkanları, hər iki ölkənin turizm potensialı müzakirə edilmiş, kənd təsərrüfatı sahəsində təcrübəyə, bu sahədə tətbiq olunan qabaqcıl texnologiyalara və yeniliklərə dair ətraflı fikir mübadiləsi aparılmış, şirkətlər tərəfindən müxtəlif təqdimatlar keçirilmişdir.

Eyni zamanda, Azərbaycan tərəfdən Mərkəzi Bankın və bir sıra kommersiya banklarının, Sahibkarlığa Kömək Milli Fondunun, Rusiya tərəfdən isə müxtəlif bankların nümayəndələrinin qatıldığı bankçılıq üzrə "dəyirmi masa"da Azərbaycan və Rusiya bankları arasında əməkdaşlığın inkişaf tarixi, əldə olunan nailiyyətlər, birgə həyata keçirilmiş layihələr və əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

İclaslar çərçivəsində hər iki ölkənin sahibkarları əməkdaşlıq imkanlarını araşdırmışlar. Bundan əlavə, tərəflər humanitar sahədə yüksək səviyyədə olan əlaqələri daha da genişləndirməklə bağlı fikir mübadiləsi aparmışlar. Azərbaycan və Rusiyanın energetika və nəqliyyat sahələrində uğurlu əməkdaşlığı qeyd edilmiş, perspektivdə görüləcək işlərdən danışılmışdır.

Rusiyanın regional inkişaf naziri İqor Slyunyayev qeyd etmişdir ki, forumun işini il ərzində dəstəkləmək lazımdır və bunun üçün seminarlar keçirmək mümkündür.

Sonda çıxış edən Azərbaycanın iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev forumun iştirakçılarına təşəkkür etmiş, müzakirələrin səmərəli və işgüzar şəraitdə keçdiyini demişdir. Nazir bildirmişdir ki, növbəti VI Rusiya-Azərbaycan Regionlararası Forum gələn il Rusiyanın Yekaterinburq şəhərində keçiriləcəkdir.

* * *

Qəbələdə keçirilən "Regionlararası əməkdaşlıq: yeni inkişaf imkanları" mövzusunda V Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevə və Rusiya Prezidenti Vladimir Putinə müraciət qəbul etmişlər.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

Xarici şirkətlər ilə şəriklik qaçılmaz ola bilər

Azərbaycanda əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün bir sıra məhsulların ölkə daxilində geniş istehsalına nail olunub. Sahibkarlığa Kömək Milli Fondunun ayırdığı güzəştli kreditlər hesabına yaradılmış yeni istehsal müəssisələri bəzi ərzaq məhsulları üzrə ölkə əhalisinin tələbatını ödəyirlər.

Bu, çox sevindirici haldır, lakin gələcəkdə yerli istehsal yerində saya, yeni müəssisələrin yaradılması dayana bilər. Tutaq ki, yerli şirkətlər quş əti üzrə ölkə əhalisinin tələbatını 100% ödədilər. Bu, bazarın doyması deməkdir. Bundan sonra xarici bazarlara çıxmaq tələb olunacaqdır ki, bu elə də asan deyil. Əgər bu baş verməsə, quşçuluq şirkətləri inkişafdan qalacaqlar. 9,5 milyonluq Azərbaycan bazarı kiçik bazardır, gələcəkdə şirkətlərin fəaliyyətlərini davam etdirmələri üçün yeganə çıxış yolu ixrac olacaqdır. İxrac isə markalar olmadan mümkün deyil. Əgər yerli istehsalçılarımız markalaşmaya diqqət ayırmasalar, yaxın 3-5 il ərzində onların bəziləri rəqabətdə uduzaraq bazardan çıxmaq məcburiyyətində qalacaqdır. Nisbətən maliyyə, istehsal, xammal imkanları böyük olan və ölkə əhalisi arasında geniş tanınan istehsalçılar daha da böyüyəcək, bu da nisbətən zəiflərin fəaliyyətlərini dayandırmaları ilə nəticələnəcəkdir.

Bu problem ilə bir sıra inkişaf etməkdə olan ölkələrin şirkətləri qarşılaşıblar. Məsələn, Türkiyənin bir neçə süd istehsalçısı ölkə daxilində artan rəqabətə ixracı olmadığından tab gətirməyərək bağlanmalı olmuşdur. Bu təhlükə bir çox istehsalçıları təhdid etdiyindən onların bəziləri vəziyyəti düzgün qiymətləndirərək, xarici şirkətləri özlərinə şərik edərək birgə istehsala başladılar.

Böyük ehtimalla Azərbaycan istehsalçıları da daxili tələbatı tam ödədikdən sonra bu cür problem ilə qarşılaşmalı olacaqlar. Çünki regional və qlobal markaların yaradılması böyük vəsait və təcrübə tələb edir. Çoxillik təcrübəyə malik olan xarici şirkətlər isə dünyada tanınan markalarını yaradıblar. Yerli istehsalçılarımız, məsələn, Yaxın Şərq, Orta Asiya bazarında hökmran olmaq istəyən beynəlxalq firmalar ilə birgə istehsal quraraq onların markaları ilə ixraca başlaya bilərlər. Buna nümunə də var. Azərbaycanın süd məhsulları istehsalçısı "Atena" şirkəti Fransanın Danone şirkəti üçün məhsullar istehsal edəcəkdir. İstehsal olunacaq məhsullar Azərbaycanda satılmaqla bərabər, qonşu ölkələrə də ixrac olunacaqdır.

Azərbaycanın bir çox iqtisadçısı xarici şirkətlərin Azərbaycan bazarına daxil olmasına qarşı çıxır, onlar bildirirlər ki, qlobal şirkətlərin ölkəmizə gəlməsi milli şirkətlərin inkişafına maneə yaradacaq, nəticədə də ayrı-ayrı sektorlar xaricilərin nəzarətinə keçəcəkdir. "Azersun Holding"in Prezidenti Abdolbari Goozal isə hesab edir ki, bu fikirlər gülməlidir:

"Beş-altı il əvvəl Azərbaycanda belə bir fikir var idi – "bizim pulumuz var, ölkəmiz kiçikdir, buranı özümüz abad edəcəyik!". Mən də gülürdüm, deyirdim ki, olmayacaq! Dünyaya inteqrasiya edib birləşəcəkən - sən gedib orada ev alacaqsan, o gəlib burada ev alacaq, sən gedib orada alver edəcəksən, o da gəlib burada alver edəcəkdir. Sənin pulun milyardlarla da olsa, "nou-hau", texnologiyalar gəlməzsə, milyardların saman kimi çürüyüb qalacaqdır. Buna görə biz inkişaf etmiş ölkələrdəki qabaqcıl şirkətləri və texnologiyaları cəlb edərək birgə istehsal qurmalıyıq", – deyə Bakıda keçirilmiş forumlardan birində çıxışı zamanı Abdolbari Goozal söyləyib.

"BƏZİ ŞEYLƏR ARTIQ SƏMƏRƏSİZ OLUR"

Abdolbari Goozal əlavə edib ki, keçmişdə "hər şeyi özümüz edə bilərik" sözlərini deyən insanlar bu gün bunu bir az çətin deyəcəklər: "Çünki bəzi şeylər artıq səmərəsiz olur. Siz bir pulu xərcləməzdən öncə həmin pulun çoxluğuna deyil, idarəetmə qabiliyyətinizə baxmalısınız. Sizin o pulu idarə etməyə qabiliyyətiniz varmı? Ya pul sahibi olsun, ya da bir müdir, o, əlindəki maddi imkanı idarə etməyə qadirdirmi? İqtisadiyyata yatırdığınız 1 qəpik sizə 6 qəpik geri gətirməlidir. Əgər bunu bacarırsınızsa, buyurun, hələ möhlətiniz var, pullarınızı xərcləyin.... Necə bacarığa malik olduğunuz Dünya Sərbəst Ticarət Razılaşması imzalandıqdan sonra məlum olacaqdır".

"XARİCİLƏR İLƏ ŞƏRİK OLMALIYIQ"

Tanınmış və təcrübəli iş adamı Abdolbari Goozal qeyd edib ki, Azərbaycan şirkətləri xarici şirkətlər ilə şərikli istehsal quraraq dünya bazarına çıxmalıdırlar. Bu, Azərbaycanın Dünya Sərbəst Ticarət Razılaşmasına qoşulduqdan sonra itki verməməsinə gətirib çıxardar. "Artıq dünya şirkətləri ilə kooperativ əlaqələrə getməliyik, onlarla ortaqlıq etməliyik, iş birliliyi qurmalıyıq. Azərbaycan yerli və dünya miqyasında tanınmış şirkətlərin faydalı əməkdaşlıq etdiyi bir platformaya çevrilməlidir. Deməliyik ki, "gəlin bizim ölkəmizdə birgə istehsal edək, ətrafımızda bir sıra ölkələr var, onlara məhsullarımızı ixrac edək". Artıq bunun zamanı gəlmişdir. Yaxın gələcəkdə Azərbaycan Dünya Sərbəst Ticarət Razılaşmasını imzalayacaqdır. İndidən şirkətlərimiz tədbir görməlidirlər – dünyanın iri şirkətləri ilə birgə iş qurmalı, müasir texnologiyaları, idarəetmə təcrübələrini, "nou-hau"ları tətbiq etməli və özlərini inkişaf etdirməlidirlər. Belə etməsələr, o zaman quruyan göldə can verən balıq kimi qalacaqlar", - o deyib.

"SƏRMAYƏ TƏKCƏ AZƏRBAYCAN ÜÇÜN YATIRILMAMALIDIR"

"Azersun Holding"in Prezidenti söyləyib ki, iş adamları sərmayəsini dünya ilə rəqabəti nəzərə alaraq yatırmalıdırlar. "Bir sərmayə qoyulan zaman təkcə Azərbaycan üçün yatırılmamalıdır. Sərmayəni yatırmamışdan öncə deməlisiniz ki, bu işi dünyada başqa daha üstün şərtlərlə həyat keçirənlər varmı? Məsələn, mən niyə ağaca söykənən kağız istehsalını qurum. Çünki dünyada Sibir var və orada nəhəng fabriklər bu işi görürlər. Hər bir ölkənin də bir üstünlüyü var, o üstünlük kəşf edilməlidir. Məsələn, Azərbaycanda proqram təminatı, kənd təsərrüfatı sahələrini, mədən və tikinti materialları sənayelərini inkişaf etdirərərək söz sahibi olmaq olar".

"KƏND TƏSƏRRÜFATINA GİRMƏK NİYYƏTİM YOX İDİ"

Abdolbari Goozal bildirib ki, əvvəllər "Azersun Holding"in kənd təsərrüfatı sahəsində fəaliyyət göstərmək planları olmayıb, lakin ABŞ şirkətilə qurulan əməkdaşlıq bu işi onlara sevdirib: "Mənim heç kənd təsərrüfatı sahəsinə girmək niyyətim də yox idi. Yalnız ABŞ-ın "Valmont İnternational" şirkətilə işləməyi tövsiyə etdilər, mən də xeyirdua verdim. Doğrusu, biz nə əldə etdik, baxdıq, gördük ki, kənd təsərrüfatı sahəsində Amerika şirkətlərinin bildiyi ilə bizim bildiyimiz arasında yer ilə göy qədər fərq var. Amerika şirkətilə birgə işləmək nəticəsində onlardan çox şey öyrəndik. Biz indi kənd təsərrüfatını sevirik, həm də başa düşürük ki, bu işi özümüz etsəydik, bacara bilməyəcəydik. Hər işin bir texnologiyası, "nou-hau"su vardır".

Azərbaycanda böyük iş təcrübəsinə malik olan Abdolbari Goozalın dediyi kimi, yaxın gələcəkdə şirkətlərimiz fəaliyyətlərini davam etmələri üçün tanınmış xarici markalar ilə əməkdaşlığa getməlidirlər. Bu, birgə sərmayə yatırmaq, şirkətin nizamnamə kapitalının bir hissəsinin satışı, françayzinq və s. formalarda ola bilər.

Seymur YUNUSOV

Xarici ekspertlərlə görüş keçirildi

İyun ayının 23-25 tarixlərində Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Almaniya Əməkdaşlıq Təşkilatının (GİZ) birgə təşəbbüsü ilə mülki hüquq sahəsində beynəlxalq səviyyədə tanınmış ekspertlər - Vismar Universitetində Şərq İnstitutunun Tədqiqat üzrə direktoru, post-sovet ölkələri üzrə hüquq məsləhətçisi, professor Hans-Joachim Schramm, Bremen Universitetinin sabiq professoru, post-sovet ölkələri üzrə hüquq məsləhətçisi Rolf Knieper və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi barədə təkliflər" layihəsinin beynəlxalq təcrübə və milli qanunvericilik nəzərə alınmaqla hərtərəfli araşdırılması və layihə ilə bağlı rəyin hazırlanması məqsədi ilə yaradılmış müvafiq Komissiyanın üzvlərinin, o cümlədən yerli ekspertlərin iştirakı ilə işçi görüşlər keçirilir.

Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov görüşü açıq elan edərək, Azərbaycan Respublikasında mövcud olan ictimai münasibətlərin inkişaf sürətini nəzərə alaraq, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində Mülki Məcəllənin fiziki və hüquqi şəxslərlə bağlı fəsillərinə müvafiq dəyişikliklərin edilməsinin zəruri olduğunu qeyd etmişdir. Görüşdə hüquqi şəxslərin təşkilati hüquqi formaları, onların ictimai münasibətlərdə statusu, hüquqi şəxslərdə idarəçilik, onların nizamnamə kapitalının həddi, təsisçilərinin məsuliyyəti, sahibkarlıq fəaliyyətinin mahiyyəti, fərdi sahibkarın statusu və s. məsələlər barədə qabaqcıl dünya dövlətlərinin təcrübəsi, xarici ekspertlərin bu sahədə fikirləri öyrənilmiş və geniş müzakirələr aparılmışdır.

Gələcəkdə də bu sahələr üzrə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində fikir mübadiləsinin davam etdirilməsi, mövcud ictimai münasibətlər kontekstində uğurlu hesab olunan təcrübələrin tətbiqi, fiziki və hüquqi şəxslərlə bağlı mülki qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Mülki Məcəlləyə dəyişikliklər layihəsinin hazırlanması nəzərdə tutulur.

Vergilər naziri Xaçmazda vətəndaşları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə köməklik göstərirlər.

Növbəti belə qəbul iyun ayının 20-də vergilər naziri Fazil Məmmədov tərəfindən Xaçmaz şəhərindəki vergi ödəyicilərinə xidmət mərkəzində Xaçmaz, Quba, Qusar və Şabran rayonlarından olan vətəndaşlar üçün keçirilmişdir. Vergilərin hesablanması, ödənilməsi, nəzarət kassa aparatlarının tətbiqi, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi, vergi orqanlarına işə qəbul və digər məsələlərlə bağlı 50-dək vətəndaş vergilər nazirinə müraciət etmişdir.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildirmişlər.

Vergilər Nazirliyinə işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsi başa çatmışdır

Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsi başa çatmışdır. Bu il dövlət vergi orqanlarında işə qəbul zamanı test imtahanında iştirak etmək üçün elektron ərizə ilə müraciət edən 2303 nəfərin 1931-nin sənədləri qəbul olunmuş, imtahanda 1390 nəfər iştirak etmişdir. Sayca 9-cu olan bu müsabiqədə 76 nəfər namizəd növbəti mərhələyə buraxılmışdır. Bundan sonra isə vergi orqanlarına işə qəbul olunmaq üçün müsabiqənin 2-ci mərhələsi - namizədlərlə müsahibə keçirilmişdir. Müsahibəni Vergilər Nazirliyinin Müsabiqə Komissiyası aparmışdır. Müsahibə hər bir namizədlə fərdi qaydada aparılmış, namizədlərin bilik və bacarıq-ları, ümumi dünyagörüşü yoxlanılmışdır. Hər iki mərhələni uğurla başa vurmuş 58 nəfər namizəd Vergilər Nazirliyinin kadr ehtiyatına daxil edilmişdir.

Xatırladırıq ki, indiyədək keçirilmiş 9 belə müsabiqə nəticəsində 1000 nəfərdən çox gənc kadr vergi orqanlarında işlə təmin edilmişdir.

Ekoloji mühəndislik

(əvvəli ötən sayımızda)

Qabil HƏSƏNOV,
Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti

Biosferdə maddələrin biogeokimyəvi – kiçik dövranı fotosintez prosesində qeyri-üzvi maddələrdən canlı maddələrin yaranması və parçalanma zamanı üzvi maddələrin yenidən qeyri-üzvi birləşmələrə çevrilməsidir, bu, həyatın yaradıcısıdır. Maddələr mübadiləsinin enerjisinin mənbəyi günəş radiasiyasıdır. O, fotosintez yaradır, bu enerji planetdə qeyri-bərabər paylanır, istilik enerjisi əks olunma ilə itir, torpaq udur, suyun transpirasiyasına sərf olunur.

Təbii və kosmik müşahidələr nəticəsində məlum olur ki, qlobal iqlim dəyişməsi Yer kürəsinin bütün kordinatlarında əyani vəzifələrlə özünü büruzə verir, planetdə böyük və kiçik dövranda qlobal əhatə dairəsinə təsir dinamikasına təkan verən faktorlar ekoloji tarazlığın pozulması ilə nəticələnir.

Ekoloji mühəndisliyin texniki fəaliyyətinin nəticələrini əvvəlcədən düzgün bilmək üçün burada kompyüter hesablamaları ilə modelləşdirmək metodu böyük və kiçik dövranda ekoloji tarazlığın indiki zamanda sabitləşdirilməsinə ilk köməkdir. Bu metod texniki təsir nəticəsində biosferdə yaranan bir sıra prosesləri aşkarlayır. Modelləşdirmə metodu ilə aşkar edilən ekoloji pozğunluq düzgün təyin edildikdən sonra ekoloji mühəndislik üzərində monitorinq təşkil emək səmərəli və ekoloji iqtisadi dəyər göstəricilərinə görə öz effektivliyini əyani isbat edir. Tullantısız texnologiyanın yaradılmasında, onun ekoloji təmizliyinin bərpasında qlobal təsir mexanizmi həlledici sistem və bölmələrə malikdir. İşlənmiş ekoloji-iqtisadi nailiyyətlərlə ekoloji-mühəndislik mexanizmi üzərində daimi nəzarət olmalıdır. Ekoloji monitorinq – ekoloji informasiya alınmasının səmərəli sistemi olmadan müasir cəmiyyətin ekoloji ziddiyyətlərinin həlli mümkün deyildir, yalnız onun vasitəsilə ekoloji ziddiyyətlərin dairəsini qırmaq mümkündür, informasiya maddələr və enerjilə yanaşı, ümumi xarakter daşıyır.

Ekoloji informasiya akspektinə informasiya səbəblərinin öyrənilməsi, mühitin vəziyyəti, cəmiyyətin davamlı inkişafını təmin etmək üçün yeni elmi və texnoloji informasiyanın axtarılması üçün ekoloq-mühəndis xüsusi stansiyadan istifadə edir, biosferdə daimi müşahidələr aparılır. Peyklərdə atmosferin ekoloji vəziyyətinə dair geniş informasiya toplamağa, təbii prosesləri izləməyə, onlara antropogen faktorların təsiri üzərində müşahidə aparmağa imkan verir.

Ekoloji mühəndislikdə texniki sistemlərin mühəndis-ekoloji ekspertizası keçirilir, bu ekspertizanın keçirilməsində məqsəd təbii sərvətlərin səmərəli istifadəsi, yeni tullantısız və ya az tullantılı məhsul istehsal edən müəssisələrin tikilməsi, köhnə müəssisənin yenidən qurulması – genişləndirilməsi, yeni texnika və texnologiyanın ətraf mühitə təsir həddinin müəyyən edilməsidir.

Ekoloji mühəndisliyin tətbiqi, ətraf mühitin getdikcə sürətlə artan antropogen dəyişmələri, mühəndis texnikasının layihələri əsasında inşa edilən, quraşdırılan avadanlıqlar, qurğular və onların tədqiqatı ekologiyanın bütün sahələrini əhatə edərək, tullantıların təkrar emalı ilə bütün bəşəriyyəti ekoloji böhrandan çəkindirməkdir. Başlıca məqsəd texnika-texnologiya ilə ətraf mühit arasında münasibətləri harmonizasiya etmək, yeni texnosferi formalaşdırmaq, onu sosial-ekoloji mövqedən qiymətləndirmək, təbii ehtiyatlardan səmərəli istifadəni, yeni texnika və texnologiyanın ətraf mühitə təsirini müəyyən etməkdir.

Ekoloji mühəndislik ekoloji qiymət, ekoloji menecment, ekoloji modelləşdirmə, ekoloji nöqsanlar ekoloji mədəniyyəti özündə birləşdirən kriterlər məcmusudur.

Təbiətdə sərvətlərdən istifadənin səmərələşdirici iqtisadi mexanizmi, adektiv hüquq, ekoloji istiqamətlənmiş ictimai şüur ümumdünya mədəniyyətinin inkişaf mərhələsi və tərkib hissəsi, bəşəriyyətin gələcək inkişafında ekoloji problemlərin mühüm vacibliyini dərk etməklə xarakterizə olunan inzibati tədbirlər qayəsinin göstərilən mexanizmlər üzrə ödənilməsi üçün ekoloji infrastruktur təbiətdən səmərəli istifadəni, təbiətin mühafizəsini təmin edən istehsalat-təsərrüfat mühəndis sistemi, iqtisadi struktur, idarəedici mexanizmi, ekoloji infrastruktur olmalıdır. Ekoloji informatika nə qədər səlis, təmiz, elmi əsaslara dəqiq istinad edərsə, mühəndislik ekologiyası ilə bir o qədər səmərəli iqtisadi keyfiyyəti, ekoloji təmizliyi olan məhsul istehsal etmək olar.

(davamı var)

Более десяти лет возглавляла кафедру банковского дела Санкт-Петербургского государственного экономического университета (СПбГЭУ) заслуженный деятель науки, доктор экономических наук, профессор Белоглазова Галина Николаевна.

На базе кафедры была создана научная школа "Банковская деятельность и банковское регулирование", в рамках которой разрабатывается и развивается современная методология банковского менеджмента и банковского регулирования. Кафедра осуществляет подготовку аспирантов по научной специальности "Финансы, денежное обращение и кредит". За время руководство кафедрой Белоглазовой Г.Н. было издано более 60 монографий и 100 учебных пособий, в том числе с грифом УМО.

14 июня 2014 года после длительной болезни на 59 году жизни ушла из жизни Белоглазова Галина Николаевна , профессор, доктор экономических наук, заведующая кафедрой банковского дела Санкт-Петербургского государственного экономического университета.

Кафедра «Банковское дело» Азербайджанского государственного экономического университета навсегда сохранит память о Белоглазовой Г.Н., крупном ученом, высокопрофессиональном преподавателе, чутком и хорошем товарище.

Выражаем искренние соболезнования ректорату, членам кафедры «Банковское дело», семье и близким друзьям Галины Николаевны Белоглазовой.

д.э.н., Гаджиев Д. Ф. – председателя правления «Международный Банк Азербайджана»
д.э.н., проф. Багиров Д.А. – проректор Азербайджанского государственного экономического университета
д.э.н., проф. Мамедов З.Ф. – зав. каф. банковского дела Азербайджанского государственного экономического университета
д.э.н., проф. Садыгов Е. М. – ученый секретарь Азербайджанского государственного экономического университета
д.э.н. проф. – Багиров М.М. – зам. Декан факультета «Финансы»
д.э.н. проф. Керимов. А. Е.
Доц. Самедзаде Э.З. – зам. пред. Союза Экономистов Азербайджана

SOCAR сдала в эксплуатацию новую скважину на Каспии



Компания SOCAR (Госнефтекомпания Азербайджана) сдала в эксплуатацию новую скважину на мелководной части месторождения "Гюнешли" в азербайджанском секторе Каспия. Об этом говорится в сообщении, распространенном SOCAR во вторник.

В сообщении отмечается, что скважина, находящаяся на платформе "Гюнешли-13", была включена в эксплуатационный фонд с ежесуточным дебитом в 85 тонн нефти.

Месторождение "Гюнешли" играет важную роль в нефтегазовой промышленности Азербайджана. Мелководная часть месторождения разрабатывается SOCAR самостоятельно, а глубоководная - в составе блока "Азери-Чираг-Гюнешли" (совместно с иностранными партнерами).

В рамках увеличения добычи на мелководной части нефтегазового месторождения "Гюнешли" компания SOCAR запланировала бурение 20 новых скважин. Наряду с бурением новых скважин, на месторождении ведутся работы по ремонту старых. В 2013 году компания SOCAR добыла на оффшорных и оншорных месторождениях страны более 8,31 миллиона тонн нефти против 8,24 миллиона тонн в 2012 году.

Всего, по данным SOCAR, в Азербайджане в 2013 году было добыто 43,48 миллиона тонн нефти против 43 миллионов тонн в 2012 году.

Между Азербайджаном и Россией подписано 11 документов о сотрудничестве

Азербайджан и Россия подписали 11 документов о сотрудничестве по итогам V азербайджано-российского форума межрегионального сотрудничества, который проходит 23-24 июня в Габале.

Между министерством экономики и промышленности и министерством регионального развития России подписан меморандум о взаимопонимании. Документ был подписан министром экономики и промышленности Азербайджана Шахином Мустафаевым и министром регионального развития России Игорем Слюняевым.

Соглашения о сотрудничестве были подписаны между Астраханским туристическим союзом и Ассоциацией туризма Азербайджана, Уральской ассоциацией туризма и Ассоциацией туризма Азербайджана, между ООО "Астраханский региональный канал" и региональным телевидением Азербайджана. Между Российским инвестиционным агентством и Азербайджанским фондом поощрения экспорта и инвестиций (AZPROMO) подписан меморандум о взаимопонимании.

В рамках форума также были подписаны соглашения о сотрудничестве между рядом компаний Азербайджана и России. В частности соглашения о сотрудничестве были подписаны между министерством экономического развития Ростовской области России и азербайджанской компанией "Mətanət A", российской ОАО "Агрохолдинг "Старый сад" и азербайджанской компанией "STS Holdinq, ОАО "Торговый дом Дагестана" и компанией "Azexfruit". Соглашение о сотрудничестве в сфере поставок стеклотары в Азербайджан было заключено между ООО "Дагестан Стеклотара" и Azərsun Holdinq. Также был подписан контракт между дагестанским ООО "ЮгАгрохолдинг" и ООО "İnvestisiya Qrup".

В завершении мероприятия министр экономики и промышленности Азербайджана отметил, что форум внес свой вклад в развитие двусторонних отношений и добавил, что подписанные документы будут способствовать активизации сотрудничества между Азербайджаном и Россией.

Министр регионального развития России Игорь Слюняев, в свою очередь, отметил, что важно уделить особое внимание развитию сотрудничества между РФ и Азербайджаном в строительной, туристической и аграрной сферах.

"Завершение этого форума означает начало подготовки к следующему, который по традиции пройдет в России. И до следующего форума необходимо определить основные направления сотрудничества между двумя странами. В течение года мы предлагаем также провести несколько бизнес-миссий в регионы России для азербайджанских предприятий", - отметил министр.

По итогам форума было принято обращение на имя Президентов Азербайджана и России.

PASHA Bank открыл новый Бизнес-Центр в Загаталах

Один из крупнейших банков Азербайджана – PASHA Bank – получил лицензию на деятельность своего нового Бизнес-центра в г. Загаталы.

Как отметил на церемонии открытия, состоявшейся 25 июня, Председатель Правления PASHA Bank Фарид Ахундов, новый Бизнес-Центр будет фокусироваться на развитии партнерских отношений с местными предпринимателями, представляющих сектор малого и среднего бизнеса.

Банк ставит перед собой цель обеспечить предпринимателей, ведущих свою деятельность в этом и близлежащих районах, доступом к финансовым средствам. Как и всегда, PASHA Bank будет применять индивидуальный подход к каждому из наших клиентов, а также развивать деловые взаимоотношения, предполагающие баланс интересов», - сказал Ф. Ахундов.

Как и в других Бизнес-Центрах Банка, в новом отделении PASHA Bank будет предоставляться полный спектр банковских услуг: оформление кредита, расчетно-кассовое обслуживание, выдача и дальнейшее обслуживание банковских карточек, обеспечивается содействие в выходе на рынок капитала, проведение консультаций по вопросам торгового финансирования, размещение средств на депозит и пр.

Новый Бизнес-центр PASHA Bank располагается по адресу: г. Загаталы, ул. Ф.Амирова, 57А.

Азербайджанский AccessBank подписал кредитное соглашение на $15 млн.

AccessBank подписал кредитное соглашение с Черноморским банком торговли и развития (ЧБТР) о предоставлении кредита в размере 15 миллионов долларов.

Как говорится в сообщении банка, распространенном во вторник, привлеченные средства будут направлены на создание, модернизацию и развитие малых и средних предприятий, занимающихся промышленной и сельскохозяйственной деятельностью, а также обеспечению их потребностей в оборотном капитале.

"Мы очень ценим данную поддержку со стороны нашего долгосрочного партнёра - ЧБТР. Эти денежные средства будут направлены на кредитование малого и среднего бизнеса (МСБ), что в свою очередь, будет способствовать развитию региональной экономики в Азербайджане", - сказал генеральный менеджер AccessBank Михаэль Хоффманн в ходе подписания контракта.

"Тесное сотрудничество с AccessBank содействует реализации стратегии ЧБТР в Азербайджане, которая включает в себя стимуляцию роста и диверсификацию экономики посредством инвестирования и оказания поддержки развитию бизнеса в ненефтяном секторе", - сказал президент ЧБТР Андрей Кондаков на церемонии подписания, которая состоялась во время ежегодного собрания банка в Софии.

ЧБТР является одним из акционеров-учредителей AccessBank, наряду с ЕБРР, МФК и другими международными инвесторами. Новый кредит является результатом успешного сотрудничества между ЧБТР и AccessBank, которое началось с 2005 года. С учетом новой кредитной линии для поддержки МСБ сектора, открывшейся для AccessBank со стороны ЧБТР, общая сумма финансирования достигла 37 миллионов долларов США.

Черноморский банк торговли и развития является международной финансовой организацией, которая поддерживает экономическое развитие и региональное сотрудничество путём выдачи кредитов, открытия кредитных линий, предоставления капитала и гарантий для проектов и торгового финансирования в государственном и частном секторах стран-участниц. Уставный капитал банка составляет 3,45 миллиарда евро. ЧБТР удостоен долгосрочного рейтинга "A-" со стороны международного рейтингового агентства Standard & Poor's и "A2" по версии Moody's.

AccessBank основан в 2002 году такими организациями, как ЧБТР, ЕБРР, МФК, KfW, немецкая консультационная компания LFS Financial Systems (LFS) и AccessHolding. AccessBank занимается кредитованием микро и МСБ предприятий. Банк обладает широкой филиальной сетью в Азербайджане, где работают свыше 2000 человек. Агентство Fitch Ratings присудило AccessBank-у рейтинг BB+, который является наивысшим кредитным рейтингом среди всех банков Азербайджана.

"Azəryolservis" ASC

İgid oğullarımızı Silahlı Qüvvələr günü münasibəti ilə ürəkdən təbrik edirik. Qoy, ordumuz daha da qüdrətli, daha da güclü olsun.

Азербайджан сохраняет вторую строчку среди самых крупных внешнеторговых партнеров Грузии

Как сообщили во вторник в "Грузстате", товарооборот Грузии с Азербайджаном в январе-мае 2014 года составил 489 миллионов долларов.

Следует отметить, что Азербайджан является самым крупным экспортным рынком для Грузии и занимает 20,5 процента всего экспорта Грузии. За указанный период Грузия экспортировала в Азербайджан товаров и услуг на 240,4 миллиона долларов.

В то же время из Азербайджана импортировано товаров и услуг на 249 миллионов долларов, что составляет 7,5 процента всего импорта Грузии.

Самым крупным торговым партнером Грузии является Турция - оборот 776 миллионов долларов, а на третье место впервые вышел Китай - 309 миллионов долларов.

В январе-мае 2014 года внешнеторговый оборот Грузии составил 4 498 миллионов долларов, что на 16 процентов превышает показатель аналогичного периода прошлого года.

Экспорт составил 1175 миллионов (на 17 процентов больше), импорт - 3322 миллиона (на 15 процентов больше).

Отрицательный торговый баланс составил 2147 миллионов долларов, что равняется 48 процентам оборота.

Mənalı həyat və zəngin yaradıcılıq yolu

Görkəmli iqtisadçı alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, iqtisad elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Regional iqtisadi və sosial araşdırmalar institutu"nun direktoru Əli Xudu oğlu Nuriyevin anadan olmasının 75, elmi və pedaqoji fəaliyyətinin 50 ili tamam olmuşdur. Əli Nuriyev Azərbaycan iqtisadçı alimlərinin XX əsrin 60-cı illərində elmi fəaliyyətə başlamış, Respublikamızda iqtisad elminin və təhsilinin inkişafına böyük töhfələr vermiş nəslinə mənsubdur. O, Respublikamızda çoxcəhətli yaradıcılığı olan məhsuldar alim, regionşünaslıq sahəsində görkəmli mütəxəssis, peşəkar müəllim, obyektiv mövqeli xeyirxah və zəhmətkeş insan kimi tanınmışdır.

Təhsili, elmi dərəcə və elmi adları: Əli Nuriyev 1939-cu il iyun ayının 26-da Füzuli rayonunun Horadiz kəndində anadan olmuşdur. 1957-ci ildə həmin kəndin orta məktəbini, 1963-cü ildə ADU-nun İqtisad fakültəsini "Maliyyə-kredit" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. O, universitetdə əla qiymətlərlə oxumaqla yanaşı, müxtəlif ictimai vəzifələr icra etmiş, "Siyasi iqtisad fənni üzrə tələbə elmi cəmiyyəti"nin sədri olmuşdur.

Azərbaycan EA-nın müxbir üzvü Bəhmən Axundov, professorlar Həsən Dadaşov, Ələsgər Qasımov, Əhməd Qaravəliyev, dosent Abbas Nəbiyev kimi tanınmış, nüfuzlu alimlər Əli Nuriyevin biliyinə yüksək qiymət vermiş, onun elmdə və təhsildə böyük gələcəyinə inanmışlar.

Əli Nuriyev 1966-cı ildə Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunun əyani aspiranturasına daxil olmuş və 1969-cu ildə i.e.d., professor Asəf Nadirovun rəhbərliyi altında yazmış olduğu "Aşağı Kür-Araz sənaye kompleksi və onun gələcək inkişaf yolları" mövzusunda dissertasiya işini müdafiə edərək 08.00.04 – "Məhsuldar qüvvələrin yerləşməsi, SSRİ rayonlarının iqtisadiyyatı" ixtisası üzrə iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. SSRİ EA Rəyasət Heyətinin qərarı ilə 1977-ci ildə ona həmin ixtisas üzrə "Böyük elmi işçi" elmi adı verilmişdir.

1991-ci ildə SSRİ Ali Attestasiya Komitəsinin Azərbaycan EA İqtisadiyyat İnstitutunda təşkil etdiyi geniş tərkibli birdəfəlik Dissertasiya Şurasının iclasında "Yeni təsərrüfatçılıq şəraitində müttəfiq respublikanın xalq təsərrüfatının ərazi quruluşunun təkmilləşdirilməsi (Azərbaycan Respublikasının timsalında)" mövzusunda dissertasiya müdafiə edərək – 08.00.05 - "Xalq təsərrüfatı və onun sahələrinin iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili" (sənaye) və 08.00.04 – "Məhsuldar qüvvələrin yerləşdirilməsi, SSRİ rayonlarının iqtisadiyyatı" ixtisasları üzrə iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. Onun doktorluq dissertasiyası Azərbaycan elmi ictimaiyyətilə yanaşı, keçmiş SSRİ məkanında da görkəmli alimlərin diqqətini cəlb etmiş, i.e.d., prof. Alayev E.B., i.e.d. Çistyakov E.Q., i.e.d. İlyin İ.A., i.e.d., prof. Abusalmanov M.A., i.e.d. Sokovnina V.İ., i.e.d., prof Udovenko V.Q., i.e.d. prof., Türkmənistan EA-nın müxbir üzvü Bayramov D., i.e.d., prof. Pessel M.A., i.e.d., prof. E.A. Udkin bir sıra məsləhət və tövsiyələrilə yanaşı, işin böyük zəhmət hesabına və yüksək səviyyədə yazıldığını qeyd etmişlər.

Əli Nuriyev 2001-ci ilin iyun ayında AMEA-nın müxbir üzvü seçilmiş, 2005-ci ildə ona Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyi və menecment" kafedrası üzrə professor elmi adı verilmişdir.

* * *

Əmək fəaliyyəti və icra etdiyi vəzifələr: Əli Nuriyev hələ orta məktəbdə oxuyarkən əmək fəliyyətinə başlamış, 14-15 yaşlarında tarla işlərində (zəmi biçmək, ot çalmaq, pambıq yığmaq) göstərdiyi yüksək nəticələrə, qeyri-adi işgüzarlığına görə fərqlənmişdir.Orta məktəbi bitirdikdən sonra bir il kənddə sıravi kolxozçu işləmişdir. 1958-1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin tələbəsi olmuş, universiteti bitirdikdən sonra öz xahişilə Naxçıvan MR-ə təyinat almış və Naxçıvan şəhər maliyyə şöbəsində baş iqtisadçı vəzifəsində işləmiş, sonra ADU-nun siyasi iqtisad kafedrasına baş loborant dəvət olunmuş, bir müddət işlədikdən sonra AEA-da İqtisadiyyat İnstitutunda kiçik elmi işçi vəzifəsinə keçmişdir. Aspiranturanı bitirdikdən sonra 1969-72-ci illərdə İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, böyük mühəndis iqtisadçı və böyük elmi işçi vəzifələrində işləmişdir.

1972-ci ildə Azərbaycan EA Rəyasət Heyətinin qərarı ilə Naxçıvan Elm Mərkəzinin təşkilatçılarından biri kimi Naxçıvan şəhərinə göndərilmiş və orada 1980-ci ilədək iqtisadiyyat şöbəsinin müdiri işləmiş, həm də 1974-cü ildən başlayaraq ictimai əsaslarla tarix şöbəsinə rəhbərlik etmişdir. 1980-1981-ci illərdə Ümumittifaq Kooperativ Ticarətinin İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Azərbaycan filialında elmi hissə üzrə direktor müavini, 1982-1989-cu illərdə Azərbaycan Sənaye İnstitutunda dosent vəzifələrində işləmişdir. 1989-cu ildən Əli Nuriyev yenidən Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutunun "Regionların sosial-iqtisadi inkişaf problemləri" şöbəsində böyük elmi işçi, aparıcı elmi işçi, şöbə müdirinin müavini vəzifələrində işləmiş, 1992-2002-ci illərdə həmin şöbənin müdiri olmuşdur. 2002-ci ilin oktyabr ayından Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Geostrateji Araşdırmalar Mərkəzinin müdiri vəzifəsində çalışmış, 2012-ci ilin iyul ayından həmin akademiyada "Regional iqtisadi və sosial araşdırmalar institutu"nun direktoru işləmişdir.

Əli müəllim əmək fəaliyyəti dövründə işlədiyi bütün vəzifələrə böyük məsuliyyətlə yanaşmış, onları layiqincə yerinə yetirməyə çalışmış və işlədiyi yerlərdə böyük hörmət qazanmışdır.

* * *

Yaradıcılığı: Bir qədər diqqətlə baxdıqda Əli Nuriyevin zəhmətlə dolu zəngin həyat yolu keçməsinin şahidi oluruq. Eyni zamanda, onun aldığı ali təhsil, elmi dərəcə və elmi adlar arasında, habelə uzun illər tutduğu vəzifələr və icrasına rəhbərlik etdiyi mövzular arasında ixtisas baxımından əsaslı fərqlər var. Onlar ictimai elmlərin və iqtisad elminin müxtəlif sahələrini əhatə edir. Məhz bu keyfiyyətlər Əli Nuriyevin elmi fəaliyəti və yaradıcılığında öz əksini tapmışdır. Onun elmi əsərləri müxtəlif ixtisas sahələrini əhatə etməsi, bir qayda olaraq dövrün aktual problemlərinə həsr olunması, konseptual yanaşma, çeviklik və məqsədyönlülük xüsusiyyətləri kəsb edir.

Əli Nuriyev 240-a yaxın elmi, elmi-metodiki əsərin, o cümlədən 16 monoqrafiya və kitabçanın müəllifi, 10 monoqrafiyanın şərikli müəlliflərindən biridir.

Ə.X.Nuriyevin 1968-74-cü illərdə çap olunmuş əsərlərində Azərbaycanda ilk dəfə olaraq sənaye qovşaqları və ərazi sənaye-istehsal komplekslərinin iqtisadi mahiyyəti açılmış, səmərəli formalaşması və inkişafının nəzəri-metodoloji problem məsələləri, Gəncə-Qazax iqtisadi rayonu və aşağı Kür-Araz regionu sənaye komplekslərinə tətbiqən ətraflı təhlil olunmuşdur.

İki çox görkəmli iqtisadçı alimin: akademik Asəf Nadirovun Əli Nuriyevin elmi rəhbəri və doktorluq dissertasiyasının məsləhətçisi olması, akademik Əhməd Mahmudovun onun namizədlik dissertasiyasına birinci rəsmi opponent olması, 1964-1972-ci illərdə Əhməd Mahmudovun rəhbərlik etdiyi İqtisadiyyat İnstitutunda işləməsi, şübhəsiz ki, Əli Nuriyevin İqtisadiyyat İnstitutuna keçəndən sonrakı illərdə Naxçıvanla sıx əlaqə şəraitində işləməsinə müsbət təsir etmişdir.

Əli Nuriyevin 1974-80-ci illərdə elmi-təşkilati fəaliyyətində və yaradıcılığında Naxçıvan Elm mərkəzində işlədiyi dövr xüsusi yer tutur. O, rəhbərlik etdiyi iqtisadiyyat şöbəsinin elmi-tədqiqat işlərinin planını tərtib etmək üçün əvvəlcə Nazirlər Soveti və Vilayət Partiya Komitəsini narahat edən iqtisadi və sosial problemləri onlarla məsləhətləşməklə müəyyənləşdirir, sonra həmin problemlərin tədqiqini elmi-tədqiqat planına daxil edirdi.

1980-ci illərdə və 90-cı illərin əvvəllərində Ə.X.Nuriyevin tədqiqatları və əsərlərinin mövzu dairəsi daha da genişlənir. Məhsuldar qüvvələrin ərazi təşkili, iqtisadi rayonlaşdırma, inzibati-ərazi bölgüsü, sənaye komplekslərinin inkişafı və ərazi idarəetmə məsələlərini kompleks halda əhatə edir.

1989-1991-ci illərdə Əli Nuriyevin elmi-tədqiqat işlərində, çap olunmuş elmi məqalə və kitablarında ("Özünü maliyyələşdirmə şəraitində respublikanın ərazi quruluşunun kompleks təkmilləşdirilməsi" - 1990; "Azərbaycan Respublikasının iqtisadi və inzibati ərazi quruluşunun kompleks təkmilləsdirilməsi" - 1991; "Rayonlaşdırma və ərazi idarəetmə probleminin yeni formada qoyuluşu və həllinin metodoloji məsələləri" - 1994 və i.a.) inzibati-ərazi bölgüsünün və respublikadaxili iqtisadi rayonlaşmanın nəzəri-metodoloji məsələləri keçmiş İttifaqda ilk dəfə olaraq kompleks halda və qarşılıqlı əlaqədə elmi-tədqiqat obyektinə çevrilmişdir. Onun 1992-1999-cu illərdə çap olunmuş bir sıra əsərlərində Azərbaycanın 80-ci illərin axırları və 90-cı illərin əvvəllərində hərtərəfli böhrana düşməsinin obyektiv və subyektiv səbəbləri ətraflı təhlil olunur, böhrandan çıxmağın, iqtisadiyyatda yeni təsərrüfatçılıq formalarını inkişaf etdirməyin, özəlləşdirməni həyata keçirməyin, iqtisadi inteqrasiyanın, ərazi idarəetməni təkmilləsdirməyin, ölkədə siyasi sabitliyə nail olmağın konseptual əsasları şərh olunur. Qeyd etməyi vacib bilirik ki, Əli Nuriyevin bu əsərlərdə verdiyi xalqın ideya-siyasi birliyinə nail olmaq, keçmişimizə hörmətlə yanasmaq, təhsili, elmi, təbliğat sistemini yenidən qurmaq, əmək intizamını möhkəmlətmək haqqında ideyaları müasir dövrdə də öz aktuallığını itirməmişdir.

1998-2003-cü illərdə Əli Nuriyevin yaradıcılığı iki istiqamətdə davam etmişdir. Birinci istiqamət olmaqla o, respublikanın digər tanınmış alimlərilə birlikdə Naxçıvan iqtisadiyyatının inkişafı ilə bağlı məsələlərin tədqiqinə öz əsərlərində yenidən müraciət etmişdir. Onun "İqtisadiyyat" qəzetində dərc olunmuş silsilə məqalələrində (akademik Asəf Nadirovla birlikdə), "Naxçıvan iqtisadiyyatı XX əsrdə" monoqrafiyasında (A.Nadirov, Ş.Muradovla şərikli, Bakı, Elm, 2000), onun şərikli müəlliflərindən biri olduğu "Naxçıvan iqtisadiyyatı statistika güzgüsündə" (Bakı, Elm, 1999) adlı monoqrafiyada Naxçıvan iqtisadiyyatının XX əsrdə keçdiyi inkişaf mərhələləri, əldə etdiyi nailiyyətlər, həll etməli olduğu problemlər, bazar münasibətləri şəraitində inkişafının əsas problem məsələləri və istiqamətləri öz əksini tapmışdır.

Bunlarla yanaşı, Əli Nuriyevin şərikli müəlliflərindən biri olduğu "Azərbaycan iqtisadiyyatı" (Bakı, Elm, 2003, 345 səh., xaricdə yaşayan azərbaycanlı sahibkarlar üçün) monoqrafiyasında Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri, potensial imkanları və bazar münasibətləri şəraitində inkişaf istiqamətləri haqqında müfəssəl məlumat verilir, iqtisadiyyatın inkişaf səviyyəsinin yüksəlməsini şərtləndirən əsas amillər (inteqrasiya, struktur dəyişiklikləri aparılması və sahibkarlığın inkişafı) təhlil olunur.

Ə.Nuriyevin 2004-2014-cü illərdəki tədqiqatları və bu tədqiqatların məhsulu olan əsərlər öz orijinallığı ilə seçilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilmiş Regional inkişaf proqramlarının (2004-2008; 2009-2013), onların yerinə yetirilməsi gedişinin, 2004-2008-ci illərdə ölkədə aparılan regional siyasətin ilk və sistemli elmi təhlili məhz Əli Nuriyevin apardığı monoqrafik tədqiqatlarda və məqalələrdə öz əksini tapmışdır. Onun bu problemlərə həsr olunmuş əsərləri içərisində "Regional siyasət və idarəetmə" (Bakı, Elm, 2004), "Regional idarəetmənin əsasları" (Bakı, Elm, 2007, bu kitabın yenidən işlənməsi və əlavələr edilməsi əsasında nəşr edilmiş "Regional siyasət və idarəetmənin əsasları", Bakı-2011, 516 səh.) kitabları mühüm yer tutur.

Əli Nuriyevin son 10 ildəki yaradıcılığında ümummilli lider Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf etdiyi "Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları" kitabı (Bakı, "Avropa"-2013, 417 səh.) mühüm yer tutur. Şübhəsiz, bu əsəri Ə.Nuriyevin növbəti yaradıcılıq uğuru kimi qiymətləndirənlər haqlıdırlar.

Azərbaycanda regional siyasətin strateji istiqamətlərini, regional idarəetmənin təşkilati vasitə və metodlarını şərh edərkən xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublika Prezidenti İlham Əliyevin bu məsələlərlə bağlı proqram xarakterli çıxışları, fərmanları, qəbul etdikləri rəsmi dövlət sənədləri əldə rəhbər tutulmuşdur. Son illərdə çap olunmuş məqalələrində respublika regionlarının davamlı inkişafının təşkilati-iqtisadi problemlərinə, respublikanın investisiya siyasəti, iqtisadiyyatın maliyyə resursları, daxili maliyyə təminatı, xammal təminatı və kommersiya xidmətinin təşkilinin təkmilləşdirilməsilə əlaqədar məsələlərə də xeyli yer verilmişdir.

Ə.X.Nuriyevin yaradıcılığı iqtisadiyyatdan xeyli kənara çıxır, bir sıra hallarda fəlsəfi, bədii xüsusiyyətlər kəsb edir. Onun "Azərbaycan Respublikasının böhran vəziyyətindən çıxması və inkişafının prinsipial məsələləri", "Anamın həyat fəlsəfəsi" (1997), "İnsan və həyat fəlsəfəsi" (Bakı, 2005) monoqrafik əsərlərində, "Ömür, ölüm və həyat" (2007), "Ailə, təhsil və milli-mə-nəvi dəyərlər" (2008) və i.a. məqalələrində bir vətəndaş-alim olmaq etibarilə, onun cəmiyyət, insan, dövlət, elm, təhsil, müəllim, din, idarəetmə, ailə, övlad-valideyn münasibətləri haqqında baxışları sistemləşdirilmişdir. İlk dəfə olaraq alimin, müəllimin, iqtidarın cəmiyyətdə yeri, mövqeyi və rolu, onların cəmiyyət qarşısında məsuliyyəti, alimə, müəllimə dövlət qayğısının vacibliyi, dövlətin alim-müəllim qarşısında borcu, məsuliyyəti məsələləri qarşıya qoyulmuş və xalqın ideya-siyasi birliyinin qorunması, respublikanın böhrandan çıxması və inkişafının mühüm şərtləri kimi əsaslandırılmışdır.

"Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları" kitabının sonuncu fəslində müəllif yenidən bu məsələlərə müraciət edir. Ə.X.Nuriyevin çap olunmuş əsərləri elmi ictimaiyyətin diqqətini geniş cəlb etmişdir. "İqtisadiyyat və həyat" jurnalında, "Azərbaycanın vergi jurnalı"nda, "Azərbaycan müəllimi", "Həyat, "İqtisadiyyat", "Vışka, "Res-publika, "Xalq qəzeti, "Elm" və i.a. kimi qəzetlərdə tanınmış mütəxəssis və görkəmli iqtisadçı, coğrafiyaçı alimlərin bu əsərlər haqqında müsbət rəyləri dərc olunmuşdur, eyni zamanda, Əli Nuriyevin bir çox monoqrafik əsərləri Azərbaycan Milli EA-nın illik hesabatında iqtisad elminin nailiyyətləri sırasına daxil edilmişdir.

* * *

Ə.X.Nuriyev bir qayda olaraq, nəzəri-metodoloji istiqamətdə apardığı tədqiqatları, ümumiləşdirmələri respublikanın şəraiti ilə əlaqələndirərək konkret konsepsiyalar, tövsiyələr və təkliflər formasında ifadə etmiş, onların əsas hissəsinin praktikada tətbiqinə, yaxud da geniş elmi ictimaiyyətin, müvafiq dövlət idarəetmə strukturlarının nəzərinə çatdırmağa nail olmuşdur.

Eyni zamanda, o, Respublika Təhsil Nazirliyi tərəfindən qəbul olunmuş, 1996-cı ildən başlayaraq tədris prosesində və elmi-tədqiqat işlərində, habelə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında (2004-2008-ci illər; 2009-2013-cü illər) istifadə edilən yeni iqtisadi-coğrafi rayonlaşdırma şəbəkəsinin hazırlanmasının əsas müəlliflərindən biridir.

* * *

Əli Nuriyev 70-ci illərdən başlayaraq elmi dərəcəsi olan yüksək ixtisaslı kadr hazırlığında fəal iştirak edir. Bilavasitə onun elmi rəhbəri, məsləhətçisi olduğu 22 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmiş, 2 nəfərin işi müdafiəyə təqdim olunmuşdur. Əli Nuriyev 1973-cü ildən başlayaraq çoxsaylı doktorluq və namizədlik dissertasiyalarına rəsmi opponent olmuş, çoxsaylı dissertasiya və avtoreferata rəy vermiş, 1992-ci ildən başlayaraq dissertasiya şuralarının üzvü olmuş və bu istiqamətdə elmi dərəcəsi olan kadr hazırlığında mühüm rol oynamışdır. Əli Nuriyev hazırda AMEA-nın İqtisadiyyat İnstitutunda dissertasiya şurasının üzvü və elmi seminarın sədri olmaqla elmi dərəcəsi olan kadr hazırlığında fəal iştirak edir.

2002-ci ilin avqust ayında ümummilli liderimiz Heydər Əliyevin komandasında bir çox görkəmli alimlərlə bərabər Naxçıvan Muxtar Respublikasına səfər etmiş və AMEA-nın Naxçıvan bölməsinin formalaşmasında, Muxtar Respublikanın təbii resurslarından istifadə institutunun təşkilinin və iqtisadçı kadrların cəlb edilməsinin vacibliyinin əsaslandırılmasında fəal iştirak etmişdir.

Ə.X.Nuriyev 1974-cü ildən başlayaraq çoxsaylı monoqrafiya, kitab və kitabçaların elmi redaktoru olmuşdur. Eyni zamanda, Respublika Təhsil Nazirliyinin Metodiki Şurasının Dövlət İdarəçilik Akademiyasında yaradılmış "İdarəetmə" bölməsinin sədr müavinidir.

2003-2012-ci illərdə Ə.X.Nuriyev Dövlət İdarəçilik Akademiyasında elmi-praktiki konfransların, elmi seminar və sessiyaların keçirilməsinin əsas təşkilatçılarından biri olmuş, bu konfranslarda əsas məruzəçi olmuş, müvafiq bölmələrin işinə rəhbərlik etmişdir.

Hazırda Əli Nuriyev Dövlət İdarəçilik Akademiyasında "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalında redaksiya heyətinin və Akademiyanın Böyük Elmi Şurasının üzvü olmaqla bunların qarşısında duran vəzifələrin yerinə yetirilməsinə böyük kömək göstərir.

* * *

Ə.X. Nuriyev uzun illərdir ki, elmi yaradıcılığı pedaqoji fəaliyyətlə sıx əlaqələndirir, əldə etdiyi elmi nəticələri tələbələrə çatdırır.

Ali məktəblər üçün metodiki dərs vəsaitlərinin yazılmasında iştirak etmiş, bir neçə monoqrafiya və dərs vəsaitinin elmi redaktoru olmuşdur. Onun fəal iştirakı ilə 1969-1970-ci və 1995-ci illərdə hazırlanmış iqtisadi rayonlaşma şəbəkələri elmi-tədqiqat, planlaşdırma və proqnozlaşdırma işlərilə yanaşı, tədris prosesində də geniş miqyasda istifadə olunur. Əli Nuriyev hazırda Respublikada tədris prosesində geniş istifadə olunan "Dövlət idarəçilik nəzəriyyəsi" dərsliyinin (Elm və təhsil nəşriyyatı, 2010, 552 səh., əməkdar elm xadimi, professor S.T.Qəndilovun ümumi rəhbərliyi ilə) redaktorlarından və əsas müəlliflərindən biridir.

Əli müəllim gənc alimlərin elmi əsərlərinin 1970-ci ildə keçirilən Ümumrespublika müsabiqəsinin, apardığı elmi-tədqiqat işlərinin nəticələrinin tətbiqinə və ictimai fəaliyyətinə görə isə 1977-ci ildə SSRİ EA-da sosializm yarışının qalibi olmuşdur. 1970-ci ildə o, Azərbaycan Respublikası Komsomolu Mərkəzi Komitəsinin fəxri fərmanına layiq görülmüşdür. 1999-cu ildə ona mətbuatla uzunmüddətli səmərəli əməkdaşlığına, "Anamın həyat fəlsəfəsi" kitabında və digər əsərlərində yüksək sənətkarlıq uğurlarına görə "USTAD" Ali jurnalistika mükafatı verilmişdir, 2000-ci və 2009-cu illərdə Azərbaycan MEA Rəyasət Heyətinin "Fəxri fərmanı"na layiq görülmüşdür. 2004-cü ildə Azərbaycan Respublikası Elm fondunun "Uğur" mükafatına, 2005-ci ildə Qızıl Qələm media mükafatına layiq görülmüşdür.

2009-cu il sentyabr ayının 10-da ona Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adı verilmişdir.

İqtisad elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Regional iqtisadi və sosial araşdırmalar institutunun direktoru, zəhmətkeş və xeyirxah insan, peşəkar müəllim Əli Xudu oğlu Nuriyev ömrünün müdrikləşmə, yaradıcılığının yetkinlik dövrünü yaşayır. Biz həmkarları, dostları və yetirmələri adından onu anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edir, möhkəm can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

Akademik Ziyad SƏMƏDZADƏ,
AMEA-nın müxbir üzvü A.K.ƏLƏSGƏROV
i.e.d., prof. İsa ALIYEV

ALMATI QEYDLƏRİM

Elşən BAĞIRZADƏ
iqtisad üzrə fəlsəfə doktoru

Qazaxıstan Ahmet Yesevi Universiteti və Türk Akademiyasının birgə təşkil etdiyi "Dünya Enerji Bazarları və Orta Asiya və Qafqaz Ölkələri" mövzusunda keçirilən "I Beynəlxalq İqtisadiyyat, Maliyyə və Enerji Konqresi"ndə iştirak etmək üçün professor Elşən Hacızadə ilə birlikdə ilk dəfə idi ki, Almatı şəhərinə yola düşürdüm.

11 iyun 2014-cü il tarixində Bakıdan "Air Astana" havayolu şirkətinin təyyarəsi ilə 3,5 saatlıq bir uçuşdan sonra bir tərəfdən əzəmətli və başı qarlı Tanrı dağları, digər tərəfdən də əkinlərlə zəngin yaşıl ovaların görüntüsü altında Almatı Beynəlxalq Hava limanına vardıq.

Almatı Beynəlxalq Hava limanı bu günə qədər istifadə etdiyim ən kiçik hava limanı sayıla bilər. Hətta Naxçıvan və Gəncə Hava limanlarından da kiçik. Hava limanına müasir demək də çox çətindir.

Sərnişinlərə təyyarədə

"Miqrasiya Kartı" verilir. Elə təyyarədə də doldurmalısan. Çünki ölkəyə daxil olduqda pasporta möhür vurulmadan öncə tələb olunur və ona da möhür vurulur. Azərbaycanla Qazaxıstan arasında "Vizasız gediş-gəliş haqqında" saziş var. Nəysə, Hava limanı Sərhəd Keçid Məntəqəsində bir rus xanım bizi qarşıladı, "xoş gəlmisiniz" demədən pasportu və miqrasiya kartını aldı, üzünüzü kameraya tutun deyərək şəklimizi çəkdi və ölkəyə daxil olmağa icazə verdi.

Hava limanının çıxışında bizi Ahmet Yesevi Universitetinin əməkdaşları qarşılayır. "Jeep"imizə minərək birbaşa qalacağımız "Qazaxıstan Oteli"nə gedirik. Yolboyu şəhərlə iç-içə olan yaşıl meşələr, düzgün və geniş küçə, yollar, nizamlı trafik və təmiz hava diqqətimi çəkir və heyrətlənməyə bilmirəm. Bir gün əvvəl yağış yağdığından hər tərəf təmizdir, havadan da çiçəklərin ətri gəlir.

15 dəqiqə sonra əzəmətli "Qazaxıstan Oteli"nə çatırıq. 1970-ci ildə tikilib. 26 mərtəbəlidir. Hündürlüyü də 102 metrdir. Almatının ən hündür 2-ci, Qazaxıstanın isə 8-ci binası sayılır. Şəhərin mərkəzi küçələrindən olan "Dostık" küçəsində yerləşir. Şəhərin simvollarından sayılır.

Otelin foyesində Konqres iştirakçılarının bəziləri ilə görüşürük. "Türkiyə Ekonomi Kurumu" başkanı sayın professor Ercan Uyğur, İzmir Dokuz Eylül Universitetindən dəyərli dostum professor Recep Kök və yenə Dokuz Eylül Universitetindən Selim Şanlısoy dostumuz da bunların arasındadır.

Otelə rəsmi giriş edib, otel işçisi bir Qazax Türkü qardaşımızın müşayəti ilə otağıma - 22-ci mərtəbəyə qalxıram. Yolda işçiyə öz dilində danış, Qazax Türkcəsinə alışmaq istəyirəm deyirəm. O, da danışır. Amma anlaşmaqda çox çətinlik çəkirik və yenidən İngiliscəyə keçirik. Bir daha görürəm ki, dil məsələsində edəcəyimiz çox iş var...Oteldə otağıma girər girməz həmişəki kimi ilk olaraq pəncərəni açıb şəhəri seyr edirəm. 22-ci mərtəbədən şəhərin hər tərəfi görünür. Yaşıl ağaclarla

örtülü sahələrin binalarla örtülü sahələrdən çox olduğunu görüb təəccüblənir, bir az da Almatı sakinlərini qısqanıram. Sonradan öyrənirəm ki, Almatının yerləşdiyi ərazidə 16 milyon əkili ağac var. Yəni haradasa bütün Qazaxıstan əhalisi qədər...

Nəysə, tələsirəm. Çünki növbədə yemək var. Otelin 2-ci mərtəbədəki böyük və açıq balkonunda axşam yeməyinə başlayırıq. Çox gözəl hava var. Yenicə gəldiyimiz Bakının nəmli və isti havası ilə müqayisə edilməyəcək dərəcədə gözəl hava. Ancaq birdən oturduğum masadan sağa baxıram və sınıq-salxaq və uzun bir 9 mərtəbəli köhnə sovet yaşayış binasını görürəm. Bu qədər əzəmətli və turistlərlə dolu otelin düz dibində. Yəqin ki, Bakıda olsa idi, bu binaya bir "xələt" geyindirərdik. Amma sonrakı günlərdə mənə aydın oldu ki, belə görüntülər Qazax qardaşlarımızın heç vecinə də deyilmiş. Çünki Almatının müxtəlif küçələrində belə təzadlı görüntülərə rast gəlmək mümkündür.

Axşam yeməyində qarşılaşdığım bir qəribəlik də qiymətlərlə bağlı oldu. Sən demə, Almatıda qiymətlər "London qiymətləri" imiş. 1 ABŞ dolları orta hesabla 182 Qazax təngəsi olsa da, bu qiymətlərə heç dollar da "dayana" bilmir. Sonrakı günlərdə gördüm ki, burada 400-500 təngədən, yəni 2 manatdan aşağı çox az şey tapmaq mümkündür. Bir də bu qədər sıfırlı qiymətlərə vərdiş etmədiyimizdən bəzən də qiyməti eşitdikdə "qorxu dolu hisslər" keçirirdik. Müşahidələrim göstərdi ki, bir çox zəruri əmtəənin qiyməti Almatıda Bakıdan ən azı 2 dəfə bahadır...

Axşam yeməyindən sonra həmişə olduğu kimi birbaşa şəhərə çıxıram. Özü də adətim üzrə şəhərin mərkəzi küçəsi haradır, onu tapmalı və elə ilk gün də oranı gəzməliyəm. Almatıda da bu küçə Arbatdır. Trafikə bağlı bir küçədir. Bakıda Nizami, İstanbulda İstiqlal küçəsi kimi. Ama onu deyim ki, Arbat Nizami və İstiqlal küçələri ilə müqayisədə çox-çox kiçikdir. Elə də böyük zənginlik mesajı vermir. Hər iki tərəfində kafe və restoranlar sıralanır. Küçədə elə böyük insan seli ilə də qarşılaşmaq mümkün deyil. Sonradan mənə bəlli oldu ki, Almatının hər tərəfi prestijli kafe ve restoranlara doludur və insanlar bütün küçələrdə rahatlıqla istirahət edə bilirlər.

Axşam şəhərdə bir xeyli piyada gəzirik. Çox nizamlı bir şəhərdir. Polisə demək olar ki, rast gəlmək olmur. Çox gec saatlarda arabir post patrulları görmək mümkündür. Almatı küçələri eynilə Vaşinqtondakı kimi doxsan dərəcə bucaq altında kəsişir. Bu da şəhərdə azmaq ehtimalını minimuma endirir. Hər tərəfdə böyük bağlar, parklar. Binallar yaşıllıqlar içində. Bəzi motosikletçiləri nəzərə almasaq, sürücülər yol hərəkəti qaydalarına ciddi riayət edirlər. Piyada dəyərlidir və onun keçid üstünlüyü gözlənilir.

Sabah tezdən "I Beynəlxalq İqtisadiyyat, Maliyyə və Enerji Konqresi"nin açılış mərasimində iştirak etmək üçün "Qazaxıstan oteli"nin "Premyum" zalına gəlirik.

(davamı var)

"BOKT-lar üçün minimum kapitalın artırılmasına ehtiyac yoxdur"

Azərbaycanda bank olmayan kredit təşkilatları (BOKT) üçün minimum kapital tələbinin artırılmasına hələlik ehtiyac yoxdur. Bunu Azərbaycan Mikromaliyyə Assosiasiyasının İcraçı direktoru Jalə Hacıyeva bildirib.

"Hazırda rəqabət tam olmadığından buna hələlik ehtiyac yoxdur. Düşünürəm ki, bazarın inkişafı üçün vaxt lazımdır", - o deyib.

Jalə xanım qeyd edib ki, hazırda BOKT-lar üçün kapital tələbi 300 min manat təşkil edir.

"Bu gün BOKT-lar depozit cəlb etmirlər, yalnız kreditləşməni həyata keçirirlər. Kapital tələbi hazırda banklar üçün artırılır. Bu gün bir-iki mikromaliyyə təşkilatı depozit qəbul etməyə özünü hazır hesab etsə də, qanun buna imkan vermir. Bunun üçün bank lisenziyası tələb olunur".

Azərbaycan Mikromaliyyə Assosiasiyası "Finca Azerbaijan"ın banka çevrilmək niyyətinə müsbət baxır:

"Onlar bunu başqa ölkələrdə ediblər və kifayət qədər uğurlu alınıb. Niyə də Azərbaycanda etməsinlər?! Onların təcrübələri nəinki Azərbaycan, dünya mikromaliyyəsi üçün nümunədir".

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin çoxminli kollektivi

Azərbaycan ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir!

Azərbaycanın 5 şirkəti Rusiya şirkətləri ilə sazişlər imzaladı

Qəbələdə V Azərbaycan-Rusiya Regionlararası Forumu öz işini davam etdirib.

Forumun ikinci günü Azərbaycan və Rusiya arasında əməkdaşlığa dair bir sıra sənədlər - Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi ilə Rusiyanın Regional İnkişaf Nazirliyi arasında qarşılıqlı anlaşmaya dair, Rusiyanın İnvestisiya Agentliyi ilə Azpromo arasında qarşılıqlı anlaşma haqqında memorandumlar, Həştərxan Turizm Birliyi ilə Azərbaycan Turizm Assosiasiyası arasında turizm sahəsində əməkdaşlıq haqqında, Ural Turizm Assosiasiyası və Azərbaycan Turizm Assosiasiyası arasında turizm sahəsində əməkdaşlıq barədə, "Həştərxan regional kanal"ı MMC ilə Azərbaycanın regional televiziyası arasında sazişlər imzalanıb.

Forum çərçivəsində Azərbaycanın və Rusiyanın bir sıra şirkətləri arasında da əməkdaşlığa dair sənədlər imzalanıb. Belə ki, forum çərçivəsində Rusiyanın Rostov vilayətinin İqtisadi İnkişaf Nazirliyi ilə Azərbaycanın "Mətanət A" şirkəti arasında Saziş, Rusiyanın "Aqroholdinq starıy-sad" ASC ilə Azərbaycanın "CTC Holding" şirkəti arasında əməkdaşlıq haqqında Saziş, "Dağıstan Ticarət Evi" ASC ilə Azərbaycanın "Azeksfrukt" şirkəti arasında əməkdaşlıq haqqında Saziş, "Dağıstan Steklotara" MMC ilə "Azərsun Holding" arasında qablaşdırma ilə bağlı təchizat sahəsində əməkdaşlıq haqqında Saziş, Dağıstanın "Yuqaqroholdinq" şirkəti ilə Azərbaycanın "İnvestment Group" MMC arasında müqavilə imzalanıb.

BOT Bioloji Təbabət

Almaniya-Azərbaycan "Bioloji Təbabət" klinikası

Ən böyük arzumuz Azərbaycan ordusunun yeni-yeni uğurlarını eşitməkdir. Ordu güclüdürsə, ölkə də güclüdür.

Bayramınız mübarək olsun!

Bu, taledir, seçən də Böyük Yaradan!

(əvvəli ötən sayımızda)

Dar macalda, əsəbi vaxtlarda səbirli və dözümlü olsan, qeybət və səhv eləməsən, udan tərəf sən olacaqsan - vaxt və zaman var.

Səni yola verən zəngləri, süni təbəssümləri başının altındakı daş yastıq kimi bil - özünü aldatma...

Özünü" şahmat fiquru kimi "peşka" yerinə qoyan bilməlidir ki, "peşka"nın geriyə yolu, qayıdışı yoxdur və potensial qurban olaraq getməlidir.

Çəkilən siqaretin əriyən külü kimi ömrün var - əlindəcə qəfildən qırıla bilər...

İstedadlı və dahi insanları dünyaya gətirən Müqəddəs Ana həm də böyük Əzabkeşdir - təkcə onu 9 ay bətnində saxlaya bildiyinə görə...

Yenicə dil açıb həyatı anlayan və ata-ana, baba-nənə nəvazişi görən körpə yazda tumurcuqlayıb çiçək açan ağaclar tək sevincək olur.

Ətrafındakıların təsirinə düşmək narkotik aludəçiliyi kimi xəstəlikdir, ondan qurtulmaq çətindir...

Borcun öhdəliyi olmur, amma tarixi olur...

Gəlin münasibətdir, necə yanaşsan, eyni cür baxacaq... Və hər şey də pərdəli olacaq...

Sənin hərəkətlərində nöqsan axtaran düşmənin olmasa da, dostun da deyil!

Qorxudan deyilən yalan da qorxuludur!

Sən doğulanda şeytan və xəstəlik sənlə bərabər dünyaya gəlir... Məqamı düşəndə, vaxt yetişəndə boynuna minəcəklər.

Ananın biri dilənir, biri dolanır... Bu, Ananın günahı deyil, Tale Yazısıdır.

Oturub-durub, yeriyə bilirsənmi? Eşidib-görə bilirsənmi? Ağlayıb-gülə bilirsənmi? Daha bundan başqa nə xoşbəxtlik axtarırsan, ay Allah bəndəsi?..

Yer üzündə nə qədər insan varsa, bir o qədər tale var. Görəsən, bir-birinə oxşar iki tale varmı bu dünyada?..

Bir var səhv, bir var xəyanət: səhvi bağışla, xəyanəti isə cəzalandır.

Gözü dolusu və yaxud gözü doymadan meyvə gətirən ağac, elə bil, dünyanın gərdişinə qarşıdır, bəlkə çətin günlərinin tədarükünü görür və ya afatın, xəstəliyin, küləyin hayına qalır?

Bir yarpağın düşməsi bir insanın ölümü; bir ağacın aşması isə nəslin qırılmasıdır...

Xoruzun banlaması, itin hürməsi, atın kişnəməsi həm də zamanın ritmləridir...

Görəsən, doğulan uşaqla ölən qoca arasında qalan dünyanın yaşı neçədir?..

Səni yaşadacaq ölüm ən son qazancındır!

Vəzifə sabiq ola bilər, təki əqidən sadiq olsun!..

Vəzifə və maddi imkan insanı cavan, şux və hökmlü göstərər.

Özün qazanmadığın pulun nə bərəkəti olar, nə də urvatı.

Vaxtından əvvəl gülmək yarınmaq kimi çıxar, düşük, şit görünər...

Məclisdə səni yoran adam nəfəsdən gələn qoxu kimidir, dərhal çevrilib uzaqlaşmaq istəyirsən.

Səni bilmirəm, mən özüm üçün yaşamaq istəmirəm...

Kefiniz kök olanda da, qanınız qara olanda da məni axtarın, məni, mənim əziz dostlarım!



İmamverdi İSMAYILOV

Azərbaycan iqtisadiyyatı tarixi müstəvidə

Atropatenanın iqtisadi həyatı

(əvvəli ötən sayımızda)

Xüsusilə, Medikado "Əspəst" yonca otunun Atropaten ərazisində bitməsi atçılıq və maldarlıq üçün əlverişli şərait yaratmışdır. Hələ vaxtilə Makedoniyalı İskəndər burada olan at ilxılarını nəzərdən keçirmiş və öz süvari dəstələrini həmin "Nisa" atları ilə təmin etmişdir. Təsadüfi deyildir ki, müharibələrdə Atropatena və Albaniya süvari dəstələri məşhur olmuşdur. Strabonun göstərdiyinə görə, Kür-Araz ovalığında yalnız bağ-bağça, bostan-meyvə bitkiləri deyil, bütün bitkilərin becərilməsinə şərait vardır. Bu ərazini görənlərin dediyinə görə, bir dəfə əkilən sahədən 2-3 dəfə məhsul əldə etmək olurdu. Atropatena ərazisində arpa, buğda, darı, mərci, lərgə, yonca, paxla və bostan bitkilərinin olması mənbələrdə öz əksini tapmışdır.

Qazıntılar zamanı Baruc-dan, Gənctəpədən, Təxt-e Süleymandan, Ərdəbildən, Makudan, Yanıqtəpədən və başqa yerlərdən buğda, arpa qalıqları, habelə əkinçilik alətləri tapılmışdır.

Əkinçilik, maldarlıq, sənətkarlıq, şəhər həyatı və ticarət əlaqələri haqqında antik dövrün mənbələrində nisbətən az məlumata təsadüf edilsə də, Atropatena ərazisində aparılan arxeoloji qazıntıların nəticələri bu ərazidə hələ qədim dövrdən etibarən əkinçilik, maldarlıq, habelə, təsərrüfat həyatının digər sahələrinin yüksək səviyyədə olduğunu göstərir. Buna nümunə olaraq, Yanıxtəpə, Həsənlu, Gənctəpə, Germi, Muğan, Ərşə, Təxt-e Süleyman və sairə qazıntılarının nəticələrini misal göstərmək olar. Savalan, Zaqroş, Səhənd, Amard (Bağro), Büzgüş, Qaflantı, Qaradağ kimi zirvələri daima qarla örtülmüş yüksək dağ silsilələri suyu bol olan çayların mənbəyinə çevrilmişdir. Bu dağlardan axan Kərxə, Diyalə, Amard (Qızılüzən), Mordi, Cğatu, Acıçay, Qarasu, Nəştəri, Dəravürd və başqa çayları göstərmək olar.

Maraqlıdır ki, müasir dövrdə də istər Mil və istərsə Muğan düzündə saxlanılan qoyun-keçi, at, dəvə və digər ev heyvanlarının artıb inkişaf etməsi səviyyəsinə qonşu ərazilərdə təsadüf edilmir. Strabonun məlumatına görə, hündür dağlara malik olan Midiya ölkəsində atçılığa böyük yer verilir və ən məşhur atlar bu ərazidə bəslənilir. Burada ən çox at bəslənilən çəmənlik Babilistanla fars və habelə, Kaspi darvazası arasında olan ərazidə yerləşir. 50 minə yaxın olan şah ilxısının madyanları burada bəslənilir. Dövrünə görə dünya şöhrəti qazanmış "Nisa" cinsli atlar burada saxlanılırmış. Strabonun dediyinə görə, "Nisa" cinsindən olan atlar farsların, parfiyanların atlarından fərqli idi. Ümumiyyətlə, antik dövrdə midiyalıların və parfiyalıların atlarını "Nis" cinsli hesab edirdilər. Strabon Apollonidə istinad edərək göstərir: "Atropatenalılar 10000 süvari dəstəyə malik idilər". Deməli, atropatenalılar at ilxılarından seçmə, cavan, gözəl əndamlı çevik atlarla öz süvari dəstələrini təmin edirdilər.

Atropatenanın iqtisadiyyatının inkişafında Təbriz, Marağa, Ərdəbil şəhərləri mühüm rol oynamışdır. Atropatenada sənətkarlıq, xüsusilə xalçaçılıq inkişaf etmişdi. Atropatenin bir sıra rayonları, o cümlədən müasir Təbriz, Marağa, Sarab, Ərdəbil, Xoy, Maku, Mərənd və s. əkinçilik, bağçılıq və maldarlıq üçün olduqca əlverişli idi. Assur çarı II Sarqon Mannaya hücumu zamanı Tarmakis qalasını işğal etdikdən sonra (714 s. ə.) orada öz ordularını un, çaxır və digər ərzaq malları, habelə at ilə təmin etmişdir. Urmu gölünün cənub-şərq rayonları sənətkarlıq nöqteyi-nəzərindən də inkişaf etmişdir. Belə ki, Urartu çarı Muzazir (Musasır) məbədinin tayını tikdirdikdə Manna sənətkarlarından istifadə etmişdir.

Yuxarıda göstərilən faktlardan məlum olur ki, eramızdan əvvəl I minilliyin başlanğıcından etibarən Urmu gölü ətrafında olan ərazidə şəhər və şəhər həyatı yaranmağa başlamışdır. Demək olar ki, qədim Atropatena ərazisində şəhər həyatı eramızdan əvvəl I minilliyin əvvəllərindən etibarən Manna dövlətinin ərazisində əmələ gəlmişdir. Qədim Azərbaycan tayfalarının birləşməsində, habelə, bu tayfaların iqtisadi, ictimai, mədəni və şəhər həyatının yaranıb inkişaf etməsində Manna dövlətinin böyük rolu olmuşdur.

Manna dövlətinin ərazisində İzirtu, Tarmakis, Tabarmeys, Urmayid, Qazaka, Verra, Aqanzana, Artabed və s. şəhərlər meydana gəlib inkişaf etməyə başlamışdır. Manna dövlətinin mərkəzi hissəsini təşkil edən müasir Həsənlu kəndində, Təbriz yaxınlığındakı Təzəkənddə, Əfşar mahalında, Təxt-e Süleyman və Mərənd ətrafında Baruc qalasından əldə edilmiş arxeoloji tapıntılar Atropatena ərazisində qədim şəhərlərin mövcudiyyəti haqqında olan müddəamızı bir daha təsdiq edir.

Vaxtilə Ərdəbil xalçaçıları tərəfindən toxunulmuş, dünyada ən böyük xalça sayılan "Şeyx Səfi" xalçası halhazırda İngiltərənin "Viktoriya Albert" incəsənət muzeyində saxlanılmaqdadır. Bu xalça Azərbaycanın ən gözəl və qiymətli sənət nümunələrindəndir. Ərdəbil şəhərindəkiİmamzadə Saleh abidələri, Yəqubiyyə, İbrahimabad, Daşkəsən, Təpə, Almas və Asəf tacir körpüləri də tarixi abidələrdəndir. Bu şəhərin orta əsrlərdə yaşamış görkəmli şəxsiyyətlərindən tarixçi İbn Bəzzaz Ərdəbilli, şair Arif Ərdəbilini və başqalarını göstərmək olar.

Hər bir ölkənin qədim dövrlərdəki iqtisadi-ictimai inkişafını həmin ölkədə tarixən mövcud olmuş ticarət və ticarət yollarının nə səviyyədə olması ilə izah etmək mümkündür. Atropatena ərazisinin coğrafi mövqeyi, onun Şərq və Qərb, habelə Şərqin ticarət yolları qovşağında olması, digər ölkələrdə olduğu kimi, oranın da iqtisadi inkişafına təkan verən əsas amil olmuşdur. Şəhər həyatının inkişafında ticarət yolları da böyük rol oynamışdır. Buna görə də Atropatenanın bir sıra böyük şəhərləri məhz ticarət yolları üzərində yaranıb inkişaf etmişdir. Qazaka, Aqanzana, Fraaspa, Tarmakis, Artabed, Urmayid və başqalarını misal göstərmək olar.

Atropatenada olan bu şəhərlər ticarət yolları vasitəsi ilə Orta Asiya, Yaxın və Orta Şərq, habelə Albaniya, İberiya şəhərləri ilə daimi iqtisadi əlaqələr saxlamışlar.

Xədicə RƏHİMOVA

İri nəqliyyat layihələrini reallaşdırmaq üçün böyük tranzit potensialı var

Azərbaycanın böyük tranzit potensialı var, bunun işlədilməsi üçün ölkədə iri nəqliyyat layihələri reallaşdırılır. Trend-in məlumatına görə, bunu çərşənbə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının rəhbəri Elçin Mirzəyev dənizçilərin peşə bayramına həsr edilmiş təd-birdə deyib.

O, xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolunun və Ələt qəsəbəsində inşa edilən yeni beynəlxalq dəniz ticarət limanının tikintisi layihələrini qeyd edib. Qeyd edib ki, indiki dəniz limanının şəhərin mərkəzində yerləşməsi onun məhsuldar işinə mane olur və buna görə yeni limanın tikintisi zərurəti yaranıb: "Yeni limanın bərə terminalının tikintisinin başa çatması bərə terminalımızı mərkəzdən kənara köçürməyə imkan verəcək".

Yeni limanın 2015-ci ilin sonuna istismara verilməsi planlaşdırılır.

"PR-İN NÜFUZUN İDARƏ EDİLMƏSİNDƏ ROLU"

Dilarə Zamanova: "Nüfuz şirkətin ən qiymətli sərvətidir"



Son illər Qərbdə nüfuz anlayışını sosial məsuliyyət, sosial missiya anlayışları ilə bağlayırlar, yəni nüfuz biznesin sosial məsuliyyəti anlayışına yaxınlaşmışdır. Nüfuz mürəkkəb anlayış olub, bütövlükdə subyektin məziyyətləri və nöqsanları haqqında ümumi rəydir. Bu dəyərini maliyyə göstəriciləri ilə ifadə etmək mümkün olmayan hər hansı qeyri-maddi aktivdir. O məhsulların və xidmətlərin satış həcminə və bütövlükdə biznesin inkişafına təsir edir, bəzən isə onları müəyyən edir.

Nüfuzun idarə edilməsi müasir menecmentin istiqamətlərindən biridir. İstənilən neqativ informasiya şirkətə xeyli zərər yetirməyə qadirdir. Biznesi yalnız bir üsulla – firmanın müsbət nüfuzunu formalaşdırmaqla müdafiə etmək mümkündür.

Pablik Rileyşnz (PR – ictimaiyyətlə əlaqələr) müasir elmin ən yüksək nailiyyəti, şirkət və onu əhatə edən ictimaiyyət arasında konstruktiv əlaqələrin qurulması və saxlanması bacarığı kimi çıxış edir. Nüfuzun idarə edilməsi təşkilatın real nailiyyətlərinə əsaslanan və onun perspektiv inkişafına yönəldilmiş nüfuzun formalaşması, saxlanması və müdafiəsi üzrə tədbirlər kompleksidir.

Nüfuzun idarə edilməsində üç istiqamət mühümdür:

1. Nüfuzun formalaşması
2. Nüfuzun saxlanması
3. Nüfuzun müdafiəsi

Praktiki həyatda hər üç mərhələ bir qayda olaraq, eyni zamanda, mövcuddur və fəaliyyət göstərir.

Şirkətin nüfuzunun əsas tərkib hissələri

Dünyada hər il şirkətlərin nüfuzunun qiymətləndirilməsinin müxtəlif reytinqləri tərtib edilir. Onların hamısı qiymətləndirmə meyarları ilə fərqlənir, lakin bəzi parametrlər tədqiqatdan tədqiqata təkrarlanır. Daha sanballı reytinqlər əsasında (dünyanın ən iri şirkətlərinin nüfuz reytinqi (Reputation Institute), ən qiymətli brendlərin (Millward Brown Optimor)) şirkətin nüfuzunun əsas tərkib hissələri müəyyən edilir. Hər hansı şirkətin nüfuzu aşağıdakı altı tərkib hissədən ibarətdir ki, onlar məqsədli qruplar tərəfindən şirkət haqqında dayanıqlı rəy tərtib edilərkən nəzərə alınır:

1. Emosional cəlbedicilik. Alqı qərarı çox vaxt məhsulu görərkən qəbul edilir və burada həmin məhsulla bağlı olan informasiya və təəssüratlar yada düşür.

2. Məhsulun keyfiyyəti. Bu şərt hazırda bazarda uğurlu fəaliyyətin əsas şərtlərindən biridir və keyfiyyətsiz məhsul buraxan şirkət sadəcə uğursuzluğa düçardır.

3. Tərəfdaşlarla münasibətlər. Bu bəndə həm xarici tərəfdaşlar və tədarükçülər, həm də şirkətin əməkdaşları aiddir. Sonuncular işdən çıxarkən sanki həmin şirkət haqqında onların və ətraflarında olan insanların yazdığı və danışdığı ətraf dünyanın bir hissəsinə çevrilirlər.

4. Rəhbərliyin nüfuzu. Yəni, bu şəxsin məlum olan bütün qərarları və hərəkətləri, sözsüz ki, şirkətin məhsullarına və ümumiyyətlə, şirkətin özünə olan münasibətə təsir edir.

5. Sosial məsuliyyət. Biznesin sosial məsuliyyətinin ölkəmizdə təzəliklə şirkətlərin prioritetləri sahəsinə daxil olmasına baxmayaraq, ictimaiyyətin biznesdən sosial pay gözləntiləri kifayət qədər yüksəkdir.

6. Maliyyə göstəriciləri. Biznesin başlıca məqsədi mənfəət əldə etməkdir. Və onun işlərinin uğurlu getməsi faktı, şübhəsiz ki, onun nüfuzuna təsir edir.

Nüfuzun bütün tərkib hissələri öz aralarında bir-biri ilə bağlıdır və yalnız kompleks halda şirkət haqqında adekvat təəssüratı təmin edə bilər. Fəaliyyət sahəsindən asılı olaraq, nüfuzun tərkib hissələrinin xüsusi çəkisi müxtəlif olacaq, altı tərkib hissələrin hamısının arasında balans çatışmazlığı və ya onlardan hansısa birində natamamlıq, nəticədə şirkətin nüfuzu üzərində işin verimini aşağı salır.

Nüfuz kapitalının iqtisadi mahiyyəti

Yaxın zamanlara qədər maliyyə hesabatlarında yeganə, "mühasibat" deyilən yanaşma mövcud olmuşdur. Şirkətlərin istiqamət götürdüyü başlıca göstərici mənfəət idi. Şirkətlərin dəyəri və fəaliyyətlərinin səmərəliliyi onun maddi aktivlərinin: daşınmaz əmlakın, avadanlıqların, dövriyyə kapitalının cari vəziyyəti ilə qiymətləndirilirdi. Bu gün dünya birjalarında əsas əmtəə sadəcə yüksək texnoloji şirkətin səhmi deyil, onun imici və mənfəətliliyinə olan ictimai etibarın səviyyəsidir. Dünya təcrübəsi göstərir ki, firmanın nüfuzu onun ən zəif yerlərindən biridir. İstənilən anda ona dağıdıcı zərbə yetirilə bilər ki, bu zərbə hətta ən iri və olduqca dayanıqlı biznes-strukturlar üçün tam müflisləşmə ilə olmasa da, bazar kapitallaşmasının xeyli aşağı düşməsi ilə nəticələnə bilər. Nüfuzun oriyentiri gələcəkdir. Məhz uzunmüddətli məqsədlər dəyər amili kimi nüfuzun fundamentinə çevrilmişdir.

Şirkətin nüfuz kapitalının formalaşmasında PR-kommunikasiyaların rolu

Şirkətin nüfuzunun və onun nüfuz kapitalının formalaşması mexanizmləri PR nöqteyi-nəzərindən təsvir edildiyindən, təbiidir ki, nüfuzun yaradılması və möhkəmləndirilməsinin əsas aləti kimi PR-mütəxəssisin əsas iş üsulu olan kommunikasiyalar nəzərdən keçirilir. İdarə olunan, məqsədyönlü informasiya axınlarını kommunikasiyalar adlandırırlar, məhz bunların sayəsində şirkət qarşısına qoyduğu marketinq məqsədlərə nail olur və öz dəyərini artırır.

Nüfuz yalnız kommunikasiya prosesində müxtəlif auditoriyalar tərəfindən şirkət haqqında əldə edilən informasiyanın qiymətləndirilməsidir. Onun əsasını firmanın özü, onun iş tərəfdaşları, müştəriləri, rəqibləri tərəfindən daim verilən informasiya təşkil edir. Bu cür informasiyanın nəzarət olunmayan axınları kortəbii olaraq qiymətə çevrildikdə isə onun dəyərə təsiri gözlənilməz ola bilər.

Yaxşı halda o, neytral olacaq. Məhz buna görə kommunikasiyalar şirkətin nüfuz strategiyasına tam uyğun olmalı və PR-mütəxəssis tərəfindən ona nəzarət edilməlidir.

Nüfuzun idarə edilməsi strateji planlaşdırmanın ən mühüm tərkib hissələrindən birinə çevrilmişdir. Ona görə də planlaşdırma zamanı böhrandan əvvəlki mərhələyə xüsusi diqqət yetirmək vacibdir. Böhranı gözləmədən (lakin həmişə gözləməklə) zəif yerləri müəyyən etmək, böhranı aradan qaldırmaq üçün mümkün tədbirlər siyahısı tərtib etmək, böhran vəziyyətlərinin hər biri üçün hərəkət planı işləyib hazırlamaq, antiböhran işçi qrupunun tərkibini və qrupun hər bir üzvü üçün təlimat dəstini müəyyən etmək lazımdır.

(davamı var)

26 İYUN

SİLAHLI QÜVVƏLƏR GÜNÜ

"AĞDAĞ" şirkəti xalqımızı
26 İYUN-SİLAHLI QÜVVƏLƏR GÜNÜ
münasibəti ilə təbrik edir,
qüdrətli ordumuza yeni – yeni
qələbələr arzulayır !

AĞDAĞ®

Dünya inciləri

Müqəddəs ruh

Florensiyanın erkən intibah dövrünə aid memarlıq abidələrindən olan Bazilika Santo-Spirito (Müqəddəs ruh bazilikası) şəhərin eyniadlı meydanında, Oltrarno kvartalında yerləşir. XV əsrdə inşa olunmuş katolik kilsəsinin memarı Filippo Brunelleskidir.

Kilsənin günümüzdəki tikilisi 1471-ci ildə yanmış XIII əsr avqustin monastrının qalıqları üzərində tikilmişdir. Monastr şəhərin intellektual mərkəzi hesab olunurdu. Burada məktəb, kasıblar üçün yeməkxana və sığınacaq və məşhur yazıçı Covanni Bokkaççonun əlyazmaları yerləşən kitabxana fəalliyət göstərirdi.

Hələ 1434-cü ildə Florensiyalı tacir Stoldo Freskobaldi yeni kilsə tikdirmək qərarına gəlir. Filippo Brunelleski isə ibadətgahın planını artıq 1428-ci ildə hazır etmişdi. 1436-cı ildə Müqəddəs Ruh kilsəsinin əsası qoyulsa da, tikinti çox ləng gedirdi. 1446-cı ildə dahi ustad Filippo Brunelleski dünyasını dəyişir və onun işini Antonio Manetti, Covanni da Cayole və Salvi di Andrea davam etdirir. Kilsənin kampanilası (minarəsi) 1503-cü ildə Baççо di Anolo tərəfindən inşa edilir.

San Lorenzo bazilikasından fərqli olaraq, ölümündən sonra belə Brunelleskinin dəqiq planları yerinə yetirilir. Kilsənin planı formasına görə latın xaçını xatırladır. Bərpa olunmamış XVII əsrin fasadı üzərində xətlərin eleqantlığı, eyni zamanda, sadəliyi ilə göz oxşayır. Kilsənin tam tikintisi 1487-ci ildə başa çatdırılır. 1489-cu ildə Il Kronaka və Culyanı de Sanqallonun başçılığı ilə binanın sol tərəfində kolonnada və səkkizguşəli sakristiya tikilir, saat qülləsində kilsəyə giriş üçün qapı qoyulur.

Kilsənin əsas gözəlliyi düzgün proporsiya və əsrarəngiz rəng kombinasiyasından ibarət olan interyerdir. Əsas xatirə heykəlləri arasında Filippino Lippinin "Madonna Körpə və Müqəddəslə", Mikelancelonun "Çarmıx" əsəri durur. Mikelancelo Buonarotti qoruyucusu adlandırılan Lorenzo de Mediçinin ölümündən sonra monastrın araşdırmacısı vəzifəsinə təyin edilir. Burada o monastırın xəstəxanasından gələn ölülərin üzərində anotomik çalışmalar aparır və buna qarşılıq olaraq o taxtadan İsanın çarmıxa çəkilməsi səhnəsini simvolizə edən heykəlini düzəldir. Heykəl müqəddəs əşyaların qorunduğu sakristiyada yerləşdirilmişdir. Digər heykəllərə misal olaraq, Mazo di Bakonun poliptixinin adını çəkmək olar.

İbadətgaha girişdən solda Fonda Romano muzeyi yerləşir ki, burada Andrea Orkanyinin "Sonuncu şam yeməyi" əsəri göstərişə qoyulmuşdur.

Kilsə 1977-1978-ci illərdə bərpa edilmişdir.

Gülər ƏZİZOVA

Gəncədə "hostel"lər tikiləcək

Gəncəyə əcnəbi gənclərin marağını artırmaq məqsədi ilə Gəncədə hostellərin (yataqxana) tikilməsi nəzərdə tutulub.

Bu barədə Gəncə şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Mikayıl Zeynalov bildirib.

Onun sözlərinə görə, son üç ildə Gəncədə aparılan yenidənqurma və abadlıq işlərinin nəticəsi olaraq, şəhər inkişaf edib gözəlləşir. Şəhərin bu cür inkişaf etməsi və 2016-cı il Avropanın Gənclər Paytaxtı seçilməsi nəticəsində bura səyahət edən turistlərin sayı hər gün daha da çoxalır.

"Şəhərimizi ziyarət edən turistlərin sayının artması və əcnəbi gənclərin şəhərimizə olan marağını artırmaq məqsədi ilə Gəncədə hostellərin tikilməsi nəzərdə tutulub. Hostellərin tikilməsi ilə bağlı layihəyə bu ilin sonuna qədər start verilməsi nəzərdə tutulub", - o deyib.

Hostel az büdcə ilə səyahət edən səyyahlar, şagirdlər, tələbələr üçün ucuz qalmaq imkanı təmin edən kiçik otellərdir.

Elm Təhsil Mərkəzi
"Təfəkkür" Universitetinin
professor-müəllim və tələbə heyəti

Azərbaycan ordusu haqqın, ədalətin,
sülhün qoruyucusu kimi şöhrət qazanmışdır.
Müzəffər əsgərlərimiz xain düşmənin hər
hücumuna cavab verməyə hazırdırlar.
Bu bayram münasibəti ilə doğma
xalqımızı və mərd əsgərlərimizi təbrik edirik.

iDEAL DiZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə Dövlət Statistika Komitəsinin sədri
ARİF VƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA İqtisadiyyat İnstitutunun kollektivi
Dövlət Statistika Komitəsinin sədri
ARİF VƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

AMEA İqtisadiyyat İnstitutunun kollektivi iş yoldaşları Adilə Gözəlova və Yulduz Əliyevaya əzizləri
NADİR ƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ADNA-nın "İqtisadiyyat, beynəlxalq iqtisadi münasibətlər və menecment" fakültəsinin "Neft emalı, neft-kimya sahələrinin iqtisadiyyatı və menecment" kafedrasının əməkdaşları iqtisad elmləri doktoru, dosent
BEHBUD ƏHMƏDOVUN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ALLAH RƏHMƏT ELƏSİN

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: **Aytən SƏMƏDZADƏ**

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Məmmədhəsən Meybullayev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Şahrza Əliyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Rauf Əliyev, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 3
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 *(fax)*
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, **"Zaman-Azər" MMC** firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 **İndeks: 0355 Tiraj: 3300**